# "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun icmalı



# Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb

Mayın 1-də Bakı Konqres Mərkəzində “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə birgə foto çəkdirildi.

Tədbirin moderatoru, ABŞ-ın Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor **Alpaslan Özerdem** dedi:

- Zati-aliləri Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, dini nümayəndələr, xanımlar və cənablar.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz.

Bakıda toplaşdığımız zaman biz sərhədləri aşan, məfkurələri keçən dərin çağırışlarla və fürsətlərlə səciyyələnən qlobal durumun şahidiyik. Bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kiber təhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Əlbəttə ki, biz münaqişələri həll etməli və sülhü qurmalıyıq. 2011-ci ildə başladıqdan sonra məhz “Bakı Prosesi” bu məqsədi vacib tutub. Bu gün “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda Forumda əməkdaşlıq formalarını, rəhbərlik üsullarını müzakirə edəcəyik.

Xanımlar və cənablar.

Bu gün nümayəndələrimizə söz verməzdən öncə qısa videoçarxa baxacağıq. Orada “Bakı Prosesi” təsvir olunacaq.

**x x x**

“Bakı Prosesi”ndən və Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələrindən bəhs edən videoçarxda deyilir:

-2024-cü ildə dünyamız daha çox əlaqəli görünür, lakin heç vaxt olmadığı qədər parçalanmış qalır.

Bütün çağırışlar qarşısında bizim bir araya gəlmək, parçalanmanı dəf etmək və daha parlaq ümumi gələcəyə doğru yol açmaq üçün nadir fürsətimiz var. Bu, “Bakı Prosesi”nin özəyidir. Bakıya, Azərbaycana xoş gəlmisiniz. Burada Şərq ilə Qərb, ənənə ilə müasirlik qovuşur.

“Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz. Bu mühüm Ümumdünya Forumu “Bakı Prosesi”nin hissəsi olaraq mədəniyyətlərarası dialoqu qlobal şəkildə təşviq edir. Forum fərqli etnik, mədəni, dini və dil mənşəyi olan insanları bir araya gətirir, qarşılıqlı anlaşmaya doğru açıq və hörmətcil mübadilə üçün platforma yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə başlanmış, aparıcı beynəlxalq təşkilatların dəstəklədiyi “Bakı Prosesi” 250-dən artıq tədbirdə 180 ölkədən olan 10 mindən artıq iştirakçını salamlamış, bölgədə yeni mədəniyyətlərarası təşəbbüsləri ilhamlandırmışdır. Dünya VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna toplaşdığı zaman biz gələcəyimizi öz əllərimizdə saxlayırıq. Burada - Bakının mərkəzində bizim dünyanın gələcəyinə təsir etmək fürsətimiz var. Bu, ümid, anlaşma və dirçəlmə gətirə biləcək dinlərarası dialoq dünyasıdır. Burada dayanıqlı inkişaf, təhsil və turizm bizi bir-birimizə yaxın edir. Burada sosial media və süni intellekt bəşəriyyəti parçalamır, birləşdirir. Bakı COP29 Sammitinə ev sahibliyi edəcəyi vaxtda biz iqlim dəyişmələrinin yaratdığı çətinliyi aradan qaldırmaq üçün millətlərin bir araya gələcəyi dünyanı formalaşdırmaq istəyirik.

Əsas məqsədlərimiz dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir. Forumun məqsədi yeni siyasət, sənədlər və razılaşmalar formalaşdırmaqdır və onlar təxirəsalınmaz məsələlərdə dünya hökumətlərinə təsir göstərmək qüvvəsinə malik olacaq.

Azərbaycan zəngin mədəniyyəti, etnik və dini müxtəlifliyi, tolerantlığın tarixi ilə öz mədəniyyətini dünya üçün ümid məşəli kimi ürəkdən təklif edir.

Cənubi Qafqazda onilliklərlə sürən münaqişədən sonra bu il Böyük Qayıdış reallaşır, sülhə, təhlükəsizliyə və firavanlığa yol açan Azərbaycanın suveren milli sərhədləri bərpa olunur. Qanuni yolla ərazinin uğurla azad olunması və münaqişənin beynəlxalq hüquqa uyğun həllindən sonra ədalət nəhayət ki, zəfər çalır.

Burada əsas mesaj ümiddir. Azərbaycan bu ümidi bütün dünyaya yaymağı səmimiyyətlə arzulayır.

Bu yola birgə çıxaraq gəlin, qarşımızdakı fürsətdən yararlanaq, birləşək, müxtəlifliyi bayram edək!

Sülh, qarşılıqlı hörmət və anlaşma dünyasının yaradılmasına, gəlin, ümumi səylər, baxışlar və biliklər ilə töhfə verək.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz.

**x x x**

Moderator **Alpaslan Özerdem:** Çox gözəl bir səyahətdir. Həqiqətən biz çox ilhamlanırıq. Mən burada olmağımdan çox məmnunam. "Bakı Prosesi" birmənalı olaraq bizə ümid verir.

Zati-aliləri.

Xanımlar və cənablar.

Mən bu mötəbər toplantıda Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevi salamlamaqdan şərəf hissi duyuram. Prezident Əliyev uzaqgörən lider, mədəniyyətlərarası dialoqun və multikulturalizmin qlobal carçısıdır. 2008-ci ildə Prezident Əliyev müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun və əməkdaşlığın gücləndirilməsi üçün məxsusi təşəbbüsü – "Bakı Prosesi"ni irəli sürdü. Bu cür uzaqgörən yanaşma sərhədləri aşaraq və parçalanmanı aradan qaldıraraq millətlər arasında da daha böyük anlaşma və qarşılıqlı hörmətə yol açdı.

Xahiş edirəm, Zati-aliləri Prezident İlham Əliyevi səmimiyyətlə salamlamaqda mənə qoşulun.

**x x x**

Azərbaycan dövlətinin başçısı Forumun açılış mərasimində nitq söylədi.

**Prezident İlham Əliyevin**

**nitqi**

- Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

Hörmətli xanımlar və cənablar. Əziz qonaqlar. Azərbaycana xoş gəlmisiniz.

Çox şadam ki, Forum yenidən canlanır. Bildiyiniz kimi, bir neçə il ərzində fasiləmiz oldu. Bu, COVID-lə və post-COVID vəziyyətlə bağlı oldu. İndi isə əminəm ki, bizim ənənəvi cədvəlimiz tamamilə bərpa olunub.

Məmnunam ki, burada 100-dən artıq ölkənin nümayəndəsi var. Əslində, bu, 110 ölkədir. Bu, sözün əsl mənasında göstərir ki, Forum çox mühüm beynəlxalq platformadır və orada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur. Biz indi qısa videoçarx seyr etdik, orada "Bakı Prosesi" haqqında bəhs olunur. Əslində, biz prosesi başlayanda heç təsəvvür edə bilmirdik ki, onun nəticəsində insanları - ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirəcəyik, bir məqsəd ətrafında toplayacağıq ki, necə edək bizim dünyamız daha təhlükəsiz olsun. Çünki bunun əsasında mədəniyyətlərarası dialoq dayanır.

Mən burada Forumun proqramına baxdım. Görürəm, o, çox geniş proqramdır, bir çox sahələri əhatə edir. Gündəlik həqiqətən genişdir - mədəniyyətlərarası dialoq, müxtəliflik, iqlim dəyişmələri, miqrasiya, sülh və təhlükəsizlik, postmünaqişə vəziyyəti, turizm, süni zəka. Mən məhsuldar müzakirələr arzu edirəm. Əminəm ki, bu müzakirələr və o cümlədən Forum zamanı irəli sürülən ideyalar bizə yanaşmaları formalaşdırmağa imkan verəcək ki, mədəniyyətlərarası dialoqu necə gücləndirək, biz necə edək ki, mövcud və potensial hədələri aradan qaldıraq?

2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri görürük, yeni qeyri-sabitlik məkanlarını görürük və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın.

Həmin məsələlərin həllində, gündəlikdə olan məsələlərin müzakirəsində Azərbaycanın öz təcrübəsi var. Hesab edirəm, yaxşı olar ki, mən burada biz bu prosesi necə gördüyümüz haqqında bir az danışım və biz necə etməliyik ki, bu müsbət tendensiyaları gücləndirək? Əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır. Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir. Ona görə də biz mütləq məhz bu təşəbbüsü irəli sürməli, "Bakı Prosesi"ni başlamalı idik və bildiyiniz kimi, üç ildən sonra "Bakı Prosesi" rəsmən təsdiqləndi. Daha sonra isə biz Mədəniyyətlərarası Dialoq Forumuna başladıq. Əsas səbəblərdən biri Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlı olmasıdır. Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz, həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda - toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik. Əslində, bütün bu hadisələr bizim sərhədlərimizə çox yaxın bir məsafədə baş verir və həmçinin əvvəllər bir neçə il ərzində Azərbaycan daxilində də olub. Bu, elə bir məsələdir ki, biz onları dostlarımızla bölüşmək istərdik. Həmçinin öz əminliyimizi nümayiş etdiririk ki, biz bu yolda addımlarımızı davam edəcəyik. Əminəm ki, bununla hər bir ölkə uğur qazana bilər. Çünki əgər siz birincisi, bu məsələləri daxilən nəzərdən keçirsəniz, elə bir mühit yaranar ki, bütün etnik qrupların, dinlərin nümayəndələri özlərini ləyaqətli, təhlükəsiz şəraitdə hiss edərlər və onlara münasibət ədalətli olar. Əgər belə olmasa, bu, yalnız ayrı-seçkiliyə, etimadın çatışmazlığına aparıb çıxarar və sonda bu, sosial və bir çox hallarda siyasi çətinliklərlə nəticələnər. Bu, ölkə daxilində parçalanmaya səbəb olar. Buna görə, məhz təcrübəmiz göstərir ki, biz müstəqilliyin ilk illərində çox çətinliklər yaşadıq və bu vəziyyətdən çıxa bildik. Çünki o vaxt işğal var idi, çox iqtisadi və sosial çətinliklər özünü büruzə verirdi. Azərbaycanı parçalamaq cəhdləri var idi və məhz aqressiv separatçılıq var idi. Bütün bunlar Azərbaycan xalqının məhz həmrəyliyini, birliyini sınağa çəkdi. Buna görə milli maraqların qorunması bizim uğurumuz üçün çox vacib amil idi. Əlbəttə ki, bu kontekstdə dini rəhbərlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Elə sizin də müzakirə edəcəyiniz məsələlərdən biri bununla bağlıdır. Forumda yüzdən artıq dini nümayəndə iştirak edir. Əminəm ki, onlar qarşılıqlı anlaşmanın və hörmətin gücləndirilməsinə töhfə verəcəklər.

Azərbaycana gəldikdə, mədəniyyətlərarası dialoq elə bir məfhumdur ki, biz onu güclü şəkildə təşviq edirik. Ölkəmizdə çoxsaylı tədbirlər təşkil edirik. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bunu Ümumdünya Məniyyətlərarası Dialoq Forumu çərçivəsində həyata keçiririk və digər tədbirlərdə bu məsələyə toxunuruq. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaqdır. Bu dialoq məsələsi orada da müzakirə olunacaqdır. Əminəm ki, bütün dünyadan gələn bu sahə üzrə rəhbərlər bu gün Bakıda həmrəylik nümayiş etdirəcəklər və liderlik göstərəcəklər. Çünki dini nümayəndələrin rolu dünyada bütün xalqlar üçün vacibdir və onlar həmin rəhbərlərdə sülh, tolerantlıq, qarşılıqlı hörmət kimi müsbət mesajları eşitməlidirlər. Bunlar çox vacib amillərdir. Əfsuslar olsun ki, biz bəzi hallarda fərqli mesajları da eşidirik və bu da əlavə gərginlik yaradır. Bir sözlə, düşünürəm ki, bu istiqamətdə müsbət tendensiyalar güclü şəkildə dəstəklənməlidir.

Müzakirə olunacaq məsələlərdən biri də çoxtərəflilikdir. Azərbaycan öz təcrübəsini göstərib. Biz qəti şəkildə çoxtərəfliliyə sadiqik. Biz çoxtərəflilik dəyərlərini 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatında 2019-cu ildən bu ilin əvvəlinə qədər təşviq etmişik. O, BMT-dən sonra ikinci ən böyük təşkilatdır və həmçinin bununla bağlı yekdil qərarımız oldu, sədrliyimiz yekdil qərarla əlavə bir il də artırıldı. Təbii ki, Qoşulmama Hərəkatının vacib təməl dəyərləri məhz suverenlik, ölkələrin ərazi bütövlüyü, daxili işlərə qarışmamaqdır. Biz həmin Hərəkatın təsisatlanması seqmentinin gücləndirilməsinə çalışdıq və bununla

bağlı daxildə şəbəkə yaratdıq, qadınların və gənclərin təşkilatlarını təsis etdik. Bütün bunlar məhz Azərbaycan tərəfindən yaradılıb.

Əminəm ki, Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində inkişafı gələcəkdə də davam edəcək. Çünki hazırda dünyaya nə lazımdır, bəzi böyük ölkələr bu və ya digər qütbə aid deyil, onların öz hüquqları və öz maraqları var. Onların bəzilərinin çox ağrılı-acılı müstəmləkə tarixçəsi olub və həmin ölkələrin səsi dinlənilməlidir, onlar yaddan çıxarıla bilməz. Buna görə də həmin Hərəkatda bizim sədrliyimiz məhz bu məqsədi güdürdü və biz daha çevik, daha fəal olmağa çalışdıq. İstədik Hərəkat daha təsirli olsun. COVID vaxtlarında biz, həmçinin Qoşulmama Hərəkatının platformasından istifadə edərək həmin faciəvi xəstəliyin fəsadlarını müzakirə etməyə çalışdıq. Çünki pandemiya bütün ölkələrə təsir göstərdi. Azərbaycan məhz o ölkələrdən biri idi ki, fəal şəkildə peyvənd millətçiliyinə qarşı çıxış etdi, səsini qaldırdı və ucaltdı. Bildiyiniz kimi, pandemiyanın ilk aylarında peyvənd çatışmırdı. Pul vəsaitləri çox olan bir sıra ölkələr özlərində çox böyük sayda, hətta beş dəfədən artıq peyvənd topladılar. Bunu necə etmək olar?! Bununla onlar, sadəcə, bir çox digər ölkələrin səhiyyə sistemini heçə endirdi ki, onların da peyvəndlərə çıxışı yox idi. Ona görə milli maraqlar baxımından, əlbəttə ki, Azərbaycan həmin Qoşulmama Hərəkatında sədrliyi zamanı peyvənd milliyyətçiliyinə qarşı mübarizə apardı və biz Baş Assambleyada bununla bağlı təşəbbüskar olduq.

Biz bir məsələni də Qoşulmama Hərəkatının sədri kimi hər zaman təşviq edirdik. Bu, yeni müstəmləkə tendensiyalarına qarşı mübarizədir. Artıq söylədiyim kimi, həmin Hərəkatın üzvlərinin əksər hissəsinin çox ağır, qaranlıq müstəmləkə tarixçəsi olub və buna qarşı mübarizənin aparılması o deməkdir ki, biz buna inanırıq. Çünki biz ədalət naminə danışırıq, çünki biz beynəlxalq hüquq naminə danışırıq. Yəni, biz belə bir məsələyə imkan verə bilmərik ki, indi - XXI əsrdə bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Təbii ki, biz öz səsimizi ucaltdıqda, Hərəkatda sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, biz hansısa ölkələrə qarşı idik. Biz, sadəcə, ədalətə, beynəlxalq hüquqa bağlı idik. Bu, yaddan çıxmalı deyil. Dünya məcburi assimilyasiyaya aparan belə bir iyrənc neokolonializm təcrübəsinə göz yummamalıdır. Ondan çox fransız dənizaşırı ərazisində həyata keçirilən məcburi assimilyasiya əsla qəbuledilməzdir və buna son qoyulmalıdır. Bu səbəbdən Avropa təsisatları bəzən çalışırlar Avropada olmayan ölkələrin daxili işlərinə müdaxilə etsinlər. Amma Avropa Parlamenti və AŞPA bununla bağlı səsini çıxarmır. Çünki yeni müstəmləkə tendensiyaları yenə də davam edir. Onda siz nəyə görə tənqid etmirsiniz? Nəyə görə siz sanksiyalar tətbiq etmirsiniz? Nəyə görə susursunuz? Bəli, biz sədr olaraq Hərəkat daxilində bu işi gördük. Bu, bizim vəzifəmiz idi. İndi görürük ki, digər ölkələrə, imperiyada yaşayan xalqlara gəldikdə, biz bilirik ki, azad və müstəqil olmaq nə deməkdir. Biz bunu bilirik və həmin insanlara kömək etmək istəyirik. Çünki onlar öz hüquqlarını müdafiə etmək, müstəqilliyə qovuşmaq, öz mədəniyyətlərini, öz dillərini qorumaq istəyirlər. Bu, elə bir məsələdir ki, hesab edirəm hər bir normal insan məhz bu hüququ müdafiə edər. Bir sözlə, bu, çox vacib məsələdir. Bu, həmçinin mədəniyyətlərarası dialoq üçün vacibdir. Biz burada ikiüzlü ola bilmərik, ikili standartları tətbiq edə bilmərik. Yaxud da ki, əgər görürüksə ikili standartlar nümayiş etdirilir, biz buna göz yuma bilmərik. Əgər siz insanlara xoş olan tolerantlıqdan, demokratiyadan, insan hüquqlarından danışıb, amma digər tərəfdən, siz dənizdə olan 10-dan artıq ərazidə bunun əksini edirsinizsə, bu, riyakarlıqdan, ikili standartlardan başqa bir şey deyil. Əlbəttə ki, bu sahələrdə həmin yanaşma tətbiq olunacaqdır.

Azərbaycan COP29-a yekdil qərarla ev sahibliyi edən ölkə seçildi. Biz indi öz rolumuzu körpülərin salınmasında görürük. Mən tariximiz, coğrafiyamız, qarşılıqlı əlaqələrimiz, Avropa təsisatları ilə olan münasibətlərimiz, eyni zamanda, coğrafi baxımdan Qərb ilə Şərq arasında yerləşməyimiz barədə söylədim ki, biz bu amillərlə çox iş görə bilərik. Hazırda biz qeyd edirik ki, əvvəlki sədrliyimiz zamanı olduğu kimi körpülər salmağa çalışacağıq.

Əlbəttə ki, iqlim dəyişmələrinə aid olan məsələlərə gəldikdə, bizə maliyyə vəsaiti lazımdır. Bəli, maliyyə məsələsi öz növbəsində COP29-un əsas mövzusu olacaq. Lakin bizə həmrəylik və qarşılıqlı etimad lazımdır. Biz bir-birimizi günahlandırmalı deyilik ki, kim planetə daha çox zərbə vurub. Yaxud da qlobal istiləşməyə görə kimin daha çox məsuliyyət daşıması ilə bağlı mübahisə etməməliyik. Əgər biz bu davranışı davam etdirsək, onda bunun sonu faciə olacaq. Mən bu yaxınlarda tərəfdaşlarımızla iqlim dəyişikliyi ilə bağlı danışdım. Bu, qaçılmazdır. Çünki biz neft hasil edən ölkəyik və dedim ki, neft-qazımızın olması bizim günahımız deyil. Başqalarının da belə təbii sərvətləri var və əlbəttə ki, onların öz təbii sərvətlərindən ölkələrinin faydası üçün istifadə etmək imkanı var. Azərbaycana gəldikdə, bu imkan nəinki Azərbaycana aiddir, biz təbii qazımızı səkkiz ölkəyə çatdıraraq onların enerji təhlükəsizliyinə töhfə veririk. Əgər biz bu gün məhz yol təchizatlarına, enerji təchizatlarına baxsaq görərik ki, onlar çox müxtəlifdir. Ona görə bizim səylərimiz körpülərin salınmasına yönələcək.

Avropa-Qlobal Cənub istiqamətinə və həmrəyliyə gəldikdə, biz buna nail ola bilərik. Bunun üçün biz ürəkdən çalışmalıyıq, gündəliyimiz də buna köklənib. Eyni zamanda, bizim özümüzün yaşıl gündəliyimiz var və biz bunu xeyli əvvəl başlamışıq. Hətta xüsusilə COP29-a sədrlik bizə tapşırılanda qeyd edildi ki, bizdə 2 qiqavat Günəş və külək enerjisi stansiyaları işə düşəcək və 2030-cu ilə qədər əlavə 5 qiqavat da istismara veriləcək. Bunun sayəsində bərpaolunan enerjini elektrik enerjisi istehsalında istifadə etmək üçün bizə imkan yaranacaqdır. Bütün bunlar üçün biz çox yaxşı sərmayə şəraiti yaratmışıq, sərmayədarlar var. Biz, həmçinin bərpaolunan enerji mənbələrindən istifadə edirik. Bu, elə bir faktdır ki, biz onun əsasında beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilməliyik, yalnız sırf neft-qazın olması ilə deyil. Yəni, biz bununla bağlı hər hansı səhv addım atmırıq. Azərbaycan, onun göstəriciləri, iqlim dəyişmələrinə gəldikdə, hesab edirəm ki, onlar nümunəvi hesab oluna bilər.

Yekun bir məsələni də qeyd edim. Bu da sizin müzakirələr gündəliyinizə aiddir ki, sülh və təhlükəsizlik münaqişədən sonrakı vəziyyətlə bağlı olan məsələlərdir. Azərbaycan sülhü müharibə vasitəsilə təmin etdi. Hesab edirəm ki, bu, lazımınca nəzərdən keçirilməlidir. Biz demək olar 30 il ərzində işğal altında olmuşuq. Bütün əvvəlki dialoq forumlarında mən işğal və ədalətsizlik haqqında danışmışam və bildirmişəm ki, insanlar bundan əziyyət çəkiblər. Bizim beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi demək olar ki, müstəqilliyin ilk illərindən 2020-ci ilədək işğal altında qalıb və bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün olub, biz etnik təmizləməyə məruz qalmışıq. Bu, Qarabağda və Şərqi Zəngəzurda baş verib. Burada tamamilə yerlə-yeksan olunan sahələri görmüşük. İndi biz azad edilmiş ərazilərə daxil olanda bunu öz gözlərimizlə görürük. Əminəm ki, iştirakçılardan bəziləri azad olunmuş ərazilərə baş çəkəcəklər. Biz öz səsimizi ucaltmışıq, biz ürəkdən çalışdıq, diplomatiya sahəsində işlədik, bütün beynəlxalq təşkilatlar qətnamələri və qərarları qəbul etdi və orada erməni qüvvələrinin çıxarılması tələb olunurdu. O cümlədən BMT-nin Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etdi. Amma bu, işləmədi, çünki implementasiya mexanizmi yox idi. Bu, bizim diqqətimizdən kənarda qala bilməzdi. Həmin qətnamələri qəbul edənlər heç bir şey etmədilər ki, onlar icra olunsun. Odur ki, biz sülhə müharibə yolu ilə nail olmalı idik və 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik. Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı. İndi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır. Demək olar ki, 30 il insanlar əziyyət çəkib, beynəlxalq hüquq pozulub, bizim bütün mədəni, tarixi məkanlarımız, o cümlədən 67 məsciddən 65-i erməni vandalları tərəfindən tamamilə məhv edilib. Qeyd edirəm ki, bəzi ölkələr Ermənistana dəstək verirdi.

Ötən ilin sentyabr ayında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa edəndən sonra Ermənistanın dırnaqarası qarantorları tərəfindən siyasi hücumlara məruz qaldıq. Buna baxmayaraq, biz yenə sülh təklif etdik. İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər.

Bununla mən çıxışımı yekunlaşdırıram, vaxtınızı çox almaq istəmirəm. Diqqətinizə görə minnətdaram. Sizə müzakirələrinizdə böyük uğurlar diləyirəm. Çox sağ olun, sizə xoş səfər arzulayıram.

**x x x**

Moderator **Alpaslan Özerdem:** Cənab Prezident, bizim üçün, Forumumuz üçün aydın təlimatları verdiyinizə görə minnətdaram. Biz Sizin nitqinizdə qlobal sülh və təhlükəsizliklə bağlı fikirlərlə tanış olduq və nə edilməlidir, Azərbaycan bu günə qədər nə edib. Mən, sözün əsl mənasında, göstərdiyiniz rəhbərliyə görə Sizə təşəkkürümü bildirirəm. Çünki Siz Cənubi Qafqazı elə bir məkana çevirmisiniz ki, burada ortaq gələcək mümkündür.

**x x x**

Dünyada baş verən gərgin proseslər fonunda “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini xüsusi vurğulayan BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi **Migel Anxel Moratinos** dedi: Dialoq sülhə aparan yoldur və biz parçalanmış keçmişdən ümumi ortaq gələcəyimizə addımlayacağıq. İstərdik ki, bundan sonra normallaşmanı, münasibətlərin qurulmasını nümunə kimi götürək. Bu kontekstdən çıxış edərək qlobal səviyyədə səylərimizi davam etdirəcəyik. İstərdik ki, insanlar arasında etimad daha da bərpa olunsun. Cənab Prezident, “Bakı Prosesi” bizə lazımdır. Ümid edirəm ki, burada aparılan müzakirələr və bu Forum parlaq gələcəyimizə töhfə verəcək.

**x x x**

ICESCO-nun Baş direktoru **Salim bin Məhəmməd Əl-Malik** Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair “Bakı Prosesi”nin iqtisadiyyat, elm, iqlim sahələri kimi qlobal çağırışların səsləndiyi mühüm platforma olduğunu qeyd edərək bildirdi: Hazırda Mədəniyyətlərarası Forum özünün VI interaktiv formasında Azərbaycanın gözəl tərəqqisini qeyd edir və ölkəni digərlərindən fərqləndirir. ICESCO-nun bu dinamik ölkənin rəhbərliyi ilə özünün müstəsna tərəfdaşlığından fərəhlənməyə hər bir əsası var. Ölkənin tarixi şəhəri Şuşa İslam dünyasının mədəniyyət paytaxtı kimi fəaliyyətə başlamağa hazırlaşır. Bu, mayın 11-də olacaq. Biz ICESCO ilə Azərbaycan arasında cari əməkdaşlığın yeni mərhələsinin şahidiyik. O, mədəniyyət və sivilizasiya sahələrində fəaliyyətləri, proqramları və layihələri əhatə edir.

**x x x**

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun münaqişələrin həlli və qlobal böhrandan çıxış istiqamətində əhəmiyyətini qeyd edən UNESCO Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini xanım **Qabriela Ramos** mədəniyyət sahəsi ilə bağlı əməkdaşlıq məsələlərinə də toxunaraq dedi: Biz, əslində, əməkdaşlığı çox geniş sayda ölkələrlə edirik. Biz burada Azərbaycanı da nəzərdə tuturuq. İstəyirik ki, burada məhz incəsənət, mədəniyyət, elm sahələrində fəaliyyət göstərən xadimlər bir araya gəlsinlər, öz fərqli identikliklərini bölüşsünlər, öz tarixçələrindən danışsınlar. Hesab edirəm ki, Azərbaycan bu baxımdan çox gözəl tanınan ölkədir. Çünki Siz, cənab Prezident, bir çox tədbirlərə ev sahibliyi etmisiniz.

**x x x**

Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi Forum çərçivəsində aparılan müzakirələrin rolundan danışan BMT-nin Turizm Təşkilatının İcraçı direktoru Zoritsa Uroseviç Azərbaycanın ev sahibliyi etdiyi qlobal tədbirlərin turizm və miqrasiya sahəsində də mövcud problemlərin həllində əhəmiyyətini vurğulayaraq dedi: Bu il COP29-un məhz Bakıda keçirilməsi Sizin sadiqliyinizin təzahürüdür. İlbəil bu Forum öz əhəmiyyətini tərəfdaşlığın möhkəmləndirilməsi, tövsiyələrin verilməsi, mədəniyyətlərarası dialoq çərçivəsində mühüm və aktual məsələlərin təşviqi üçün əsas platforma kimi nümayiş etdirir.

**x x x**

Moderator Alpaslan Özerdem VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda dünyanı narahat edən mühüm mövzuların müzakirəsinə yaratdığı şəraitə və dəstəyə görə Azərbaycana təşəkkürünü bildirərək dedi: 2011-ci ildə Forum yarandıqdan sonra verdiyi güclü dəstəyə görə Prezident Əliyevə ən dərin təşəkkürümüzü və səmimi təbriklərimizi çatdırıram. Cənab Prezident və dəyərli tərəfdaşlarımız, Sizin işə sadiqliyiniz və rəhbərliyiniz bu mühüm toplantının uğurunda və onun təsirində həlledici olmuşdur.

**x x x**

Açılış mərasimindən sonra Forum işini plenar və panel sessiyalarla davam etdirdi.

**x x x**

Qeyd edək ki, Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edir.

Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər.

Üç gün davam edəcək Forum çərçivəsində 4 plenar sessiyanın və 12 panel müzakirənin keçirilməsi nəzərdə tutulur. Müzakirə olunacaq mövzular təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edir.

Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərlərinin təşkili də gözlənilir. Tədbir çərçivəsində Ağdamda və Şuşada xüsusi panel sessiyaların keçirilməsi də nəzərdə tutulur. Bu, eyni zamanda, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdən beynəlxalq ictimaiyyətə müraciət üçün bir platforma yaratmaq fürsətidir.

Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair “Bakı Prosesi”nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı – hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş Forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və “Bakı Prosesi” mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.



# Mədəniyyət naziri İordaniya şahzadəsi və Səudiyyə Ərəbistanından olan həmkarı ilə görüşüb

Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayıb.

"Bakı Prosesi" çərçivəsində Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən Forumda 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edir.

Mədəniyyət naziri Adil Kərimli Forum çərçivəsində İordaniya şahzadəsi xanım Dana Firas və Səudiyyə Ərəbistanının mədəniyyət naziri – Təhsil, Mədəniyyət və Elm üzrə Milli Komitənin sədri Şahzadə Bədr bin Abdullah bin Fərhan ilə görüşüb.

Azərbaycan Respublikası ilə İordaniya Haşimilər Krallığı arasında müxtəlif sahələrdə yaxşı əlaqələrin qurulduğunu diqqətə çatdıran nazir mədəni əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların və hüquqi bazanın mövcud olduğunu deyib. Bildirib ki, 2019-cu ildə Azərbaycan Mədəniyyət Nazirliyi ilə İordaniya Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. 2010-cu ildə İordaniyada Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Ölkəmizdə təşkil edilən bir sıra beynəlxalq incəsənət layihələrində İordaniya da təmsil olunur.

Adil Kərimli deyib ki, Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının rəhbərləri arasında mövcud olan səmimi dostluq münasibətləri əməkdaşlıq əlaqələrinin inkişafına da öz müsbət təsirini göstərir. Bildirilib ki, mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensial var. Bu kontekstdə qarşılıqlı mədəniyyət günlərinin əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı şahzadə xanım Dana Firas və mədəniyyət naziri Bədr bin Abdullah bin Fərhan bu mötəbər tədbirdə iştiraklarından məmnunluqlarını bildiriblər. Qeyd olunub ki, Azərbaycan mədəniyyətlərarası dialoqa, həmçinin İslam həmrəyliyinə mühüm töhfələr verir, ikitərəfli və beynəlxalq təşkilatçılar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrini daha da dərinləşdirir.

Görüşdə bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində iqlim dəyişiklikləri və mədəniyyət mövzusu üzrə də müzakirələrin təşkil edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



# Dialoq Forumu çərçivəsində "Təhsilin və gənclərin ayrı-seçkilik və ksenofobiya ilə mübarizəyə cəlb edilməsinin rolu" adlı panel sessiya təşkil edilib

Mayın 1-də "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Təhsilin və gənclərin ayrı-seçkilik və ksenofobiya ilə mübarizəyə cəlb edilməsinin rolu" adlı panel sessiya təşkil edilib.

Panel sessiyada çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov Forumun ənənəyə çevrildiyini bildirib. Nazir müavini qeyd edib ki, dünyanın bir çox ölkələrində terror aktları törədilir, insanlara qarşı ayrı-seçkilik aparılır. Ksenofobiya bəşəriyyətin tərəqqisini əngəlləyir, zorakılıq, münaqişə, terrorizm təhlükəsini artırır. Bəzi dairələr xalqlar və dinlər arasında münaqişələri alovlandırırlar. Problemin həllində təməl amil kimi təhsil olmalıdır.

"Təcrübə göstərir ki, təhsilli insanlar münaqişələrin daha asan həll edilməsinə imkan yaradırlar. Ölkəmiz mədəniyyətlərarası dialoq tərəfdarı olaraq prosesə öz töhfəsini verir. Hazırda heç bir şübhə yoxdur ki, tolerantlıq olmadan ksenofobiyanın dəf edilməsi mümkün deyil. Azərbaycan irqindən, dilindən, dinindən asılı olmayaraq hər bir vətəndaşın təhsil almasına imkan yaradır. Onlara öz mədəni irslərinin qorunub saxlanılması üçün hər cür şərait yaradılıb", - deyə Firudin Qurbanov qeyd edib.

Nazir müavini çıxışında Elm və Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsinin keçirilməsinin başlıca məqsədindən söz açıb. Bildirib ki, bu layihə təhsilverənlərdə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırır: "Bu gün azərbaycanlı məktəblilər olimpiadalar və yarışlarda iştirak edirlər. Belə tədbirlər gənc yaşlarda mədəniyyətlərarası dialoq və xalqlar arasında həmrəylik yaradır. Hazırda Azərbaycanda ali təhsil müəssisələrində 10 minədək əcnəbi tələbə təhsil alır.

Ümumilikdə xaricdə dövlət proqramları çərçivəsində 4500-ə yaxın gəncimiz dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb. Bugünkü Forum mədəniyyətlərarası dialoq sahəsində fikir mübadiləsi üçün geniş imkanlar yaradacaq. Mədəni müxtəliflik böyük dəyərdir və bunu qoruyub saxlamaq lazımdır".



ABŞ-ın Corc Meyson Universitetində Cimmi və Rozalin Karter Sülh və Münaqişələrin Həlli Məktəbinin dekanı Alpaslan Özerdem çıxışında bildirib ki, təhsil az maliyyələşdirilən sahədir. Burada sosial və mədəni baryerlər var. Adət-ənənə baryerləri köklərimizə qədər dərinləşib və bunları dəyişdirmək çətindir. İnkişaf etməkdə olan ölkələrdə gənclər iş tapmaqda çətinliklərlə qarşılaşırlar: "Ksenofobiya və ayrı-seçkilik adətən kiberməkanlarda baş verir. Bunların qarşısını almaq olduqca çətindir. Ksenofobiya və ayrı-seçkilik haqqında danışanda siyasi qütbləşmədən danışmaq lazımdır".

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə çıxışında Azərbaycanın çoxmədəniyyətli ölkə olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, biz müxtəlif mədəniyyətlərin qovşağında yaşayırıq və bu bizim həyat tərzimizdir. Lakin radikal ekstremist ideologiya və tolerantlıq arasında mübarizə var. Bəzən resurslar məhdud olur. Belə anlarda yaradıcı olmaq lazımdır. Prorektor bildirib ki, tələbələri böyük vəsait tələb etməyən proqramlara cəlb etmək lazımdır: "Bu proqramlar effektiv olur. Biz tələbələrimizi müxtəlif dini məbədlərə aparırıq və beləliklə onlar mədəniyyətlərlə tanış olurlar.

ADA Universitetində Afrika, Asiya ölkələrindən tələbələrin cəlb edilməsi üçün proqramlar var. Onlar ölkəmizin mədəniyyəti ilə tanış olurlar. Kibermühit yeni fenomendir. Biz bu məsələləri nəzarətdə saxlamalıyıq. Çoxşaxəlilik yaratmalıyıq və kurikulumdan kənar fəaliyyətdə də bunları tətbiq etməliyik".

Panel sessiyada, həmçinin "Alfred Deakin" Vətəndaşlıq və Qloballaşma İnstitutunun təsisçisi professor Feti Mansuri, Beynəlxalq Pedaqoqlar Assosiasiyasının (NAFSA) prezidenti və baş icraçı direktoru Fanta Av, Ərəb Birliyinin Təhsil, Mədəniyyət və Elm Təşkilatının (ALECSO) baş direktoru professor Mohammad Old Omar, Barselona Diplomatik Məktəbinin direktoru Xoakim Balselsin, Pekin Universitetinin İncəsənət Məktəbinin dekanı professor Fenq Penq, Oman Sultanlığının UNESCO-dakı daimi nümayəndəsi, səfir Həmid əl-Həmami çıxış ediblər.

Xatırladaq ki, "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilir.

# Çoxtərəfli əməkdaşlığın inkişafında yumşaq gücün tətbiqi – Forumun ilk plenar sessiyası keçirilib

Xəbər verdiyimiz kimi, 1-3 may tarixlərində Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC), Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və BMT Dünya Turizm Təşkilatının birgə tərəfdaşlığı ilə gerçəkləşir.

Rəsmi açılış mərasimindən sonra Bakı Konqres Mərkəzdə Forumun I plenar sessiyası keçirilib. “Çoxtərəfli əməkdaşlığın inkişafında yumşaq gücün tətbiqi: həmrəyliyin möhkəmləndirilməsi və parçalanmaya qarşı müqavimət” mövzusuna həsr olunan sessiyadan əvvəl UNESCO baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Qabriela Ramosa açılış nitqi ilə çıxış edib.

Koventri Universitetinin Etimad, Sülh və Sosial Əlaqələr Mərkəzinin direktoru professor Mayk Hardinin moderatorluğu ilə keçirilən sessiyada ilk olaraq BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizliyi üzrə sülhməramlı əməliyyatlar üzrə müavini Aleksandr Zuyev çıxış edib. O, Forumun beynəlxalq sülhü təşviq edəcəyinə əminliyini bildirib.




Sülh Naminə Əlaqələndiricilər və Qlobal Kompasın təsisçisi, Konqonun paytaxtı Brazzavildə baş məsləhətçi Jan Kristof Bas 2011-ci ildə Bakıda ilk dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda da iştirak etdiyini diqqətə çatdırıb: "Biz ilk Forumda iştirak edəndə bu təşəbbüsün qlobal müstəvidə qəbul olunacağını təxmin etmirdik. Ancaq zaman göstərdiyi “Bakı Prosesi” BMT tərəfindən mədəniyyətlər arasında dialoq üzrə yeganə qlobal platforma kimi edilir. Bu inkişaf məni müsbət mənada çox təsirləndirdi”.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi Soltan Məmmədov çıxışında dini müxtəliflik mövzusuna toxunub. Bildirib ki, Azərbaycan bütün dünyada tolerant ölkə kimi tanınır. Bu sahədə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrə xüsusi diqqət yetirmək istəyirəm. Fond tərəfindən Azərbaycanda və bir sıra ölkələrdə bu sahə üzrə müxtəlif layihələr həyata keçirilib.

Soltan Məmmədov Heydər Əliyev Fondunun Azərbaycanın işğaldan azad edilmiş ərazilərində vandalizmə məruz qalmış, dağıdılıb talan edilmiş tarixi-mədəni və dini irsin bərpasına və yenidən qurulmasına da öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Macarıstan Beynəlxalq Münasibətlər İnstitutunun rəhbəri Qladin Papin Forumun əhəmiyyətini yüksək qiymətləndirib. O, ölkəsinin Şərqlə Qərb arasında bağlantı rolunu oynadığını bildirib.

Davamlı Müxtəliflik və İnklüzivlik İnstitutunun rəhbəri Efendus Henderson söyləyib ki, biz hamımız bəşəriyyətin bir hissəsiyik: Dünyada qütbləşmə və etimad çatışmazlığının artdığı bu zamanda biz elə bir sülh mədəniyyəti formalaşdıra bilərik ki, o, əməkdaşlığa yol açsın, hər bir insanın mövqeyi dəyərləndirilsin. Bu mənada, Forum unikal bir platformadır. Bəşəriyyət bu gün öz yumşaq qüvvəsi ilə fərəhlənməlidir".

ASEAN Sülh və Barışıq İnstitutunun icraçı direktoru, səfir Qusti Aqunq Vesaka deyib ki, Forum çərçivəsində dialoqun sülh və qlobal təhlükəsizlikdə rolunu müzakirə etməliyik. Cəmiyyətdə gənclərin və qadınların rolundan danışan səfir bildirib ki, sülh quruculuğunda qadınların iştirakı cəmiyyətlər üçün fayda verə bilər: “Biz ahəngdar dinc şəraitdə yaşayan cəmiyyət haqqında danışırıqsa, orada gənclərin rolu mütləq qeyd olunmalıdır”.

“Satyarthi” Qlobal Şəfqət Hərəkatının icraçı direktoru Asmita Satyarthi çıxışında Forumun zəngin proqramı olduğunu, aktual məsələlərin müzakirə olunacağını deyib: “Hazırda biz sivilizasiyalar böhranın ortasındayıq. Təəssüf ki, hazırda dünyada uşaq əməyindən istifadədə xeyli artım var. Gəlin, bu məsələlərə qarşı mübarizədə səylərimizi birləşdirək”.

# Dialoq Forumunun II plenar sessiyası “Sülh və qlobal təhlükəsizlik naminə nəsillərarası dialoq” mövzusuna həsr olunub

Mayın 1-də Bakıda işə başlayan VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun II plenar sessiyası “Sülh və qlobal təhlükəsizlik naminə nəsillərarası dialoq” mövzusuna həsr olunub.

Açılış nitqi söyləyən BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Moratinos gənclərin radikal görüşlərə qarşı müqavimətinin artırılmasının zəruriliyini bildirib. Qeyd edib ki, Sivilizasiyalar Alyansında bu istiqamətdə təhlil aparılır, həmçinin təbliğat layihələri hazırlanır. Sivilizasiyalar Alyansının nümayəndəsi Anna Pavlyuçenkonun moderatorluğu ilə davam edən sessiyada İosif Brifel, Vera əl-Mövla, Atif Rəşid (Dialoq və dinlərarası şəbəkələr üçün imkanların artırılması proqramı – Böyük Britaniya), Ketrin Marponq (Mədəniyyətlərarası İnnovasiya Mərkəzi – İndoneziya), Alister Çarlz (Mədəniyyətlərarası İnnovasiya Mərkəzi – Cənubi Afrika), Grasian Mkandavire (Qlobal idman proqramı – Malavi) və Leyla Həsənovanın (COP29-un gənc iqlim çempionu) məruzələri dinlənildi.

Qeyd olundu ki, cəmiyyətlərdə radikallaşmanın qarşısını almaq üçün xüsusilə gənclərlə mütəmadi iş aparılmalı, mütərəqqi dəyərlərin təbliğatı genişləndirilməli, onların fikirləri dinlənilməlidir. Bildirildi ki, bu sahədə irəliləyişə nail olmaq üçün gənclərin idmanın müxtəlif sahələrinə yönləndirilməsi də böyük əhəmiyyət kəsb edir.

Sessiyanın sonunda Migel Moratinos səslənən fikirlərin, verilən mesajların əhəmiyyətini vurğuladı. Gənclərin zorakılıq və radikal düşüncələrinin qarşısının alınması üçün qlobal səviyyədə müxtəlif layihələr həyata keçirilməli və səylər birləşdirilməlidir. Bu məqsədlə mədəni alətlər işə salınmalı, incəsənət və idmanın imkanlarından istifadə olunmalıdır.



# Forumda “Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi; qlobal inkişafa doğru” adlı panel sessiya keçirilib

“Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 1-də “Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi; qlobal inkişafa doğru” adlı panel sessiya keçirilib.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova son illər dünyanın siması dəyişdiyini, hazırda sülh və təhlükəsizlik məsələsinin bütün platformalarda vacib bir mövzuya çevrildiyini bildirib. Qeyd edib ki, dünyanın bu gün sülh və təhlükəsizliyinin təmin olunmasına çox böyük ehtiyacı var. “Mədəniyyətlərarası toqquşmasının daha da dərinləşməməsi üçün biz təcili hərəkətə keçməliyik. Biz Forumda, eyni zamanda, müxtəlifliyin harmoniyasından istifadə edərək dünyamızı birliyə səsləyəcəyik. Hesab edirəm ki, qadın hüquqları, ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı məsələ bütün forumların başlıca mövzusuna çevrilməlidir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyətlərində qadınların iştirakı çoxalır. Bu, Azərbaycanın demokratik ənənələrindən irəli gəlir”, - deyə komitə sədri vurğulayıb.

Türkiyə Böyük Millət Məclisinin Qadın və kişilər üçün bərabər imkanlar komissiyasının sədri, UNESCO-nun aparıcı proqram mütəxəssisi Çiğdem Erdoğan çıxışında Türkiyədə qadın hüquqlarının qorunması istiqamətində görülən işlərdən söz açıb. O, ölkəsinin BMT ilə birgə keçirdiyi proqramın əhəmiyyətindən danışıb. Ç.Erdoğan qadın deputatların sayının hər parlament seçkilərində artmasının əhəmiyyətini də vurğulayıb. Mütəxəssis sonda bütün dünyanın Qəzza zolağında baş verən insanlıq faciəsinə diqqət yetirməli olduğunu vurğulayıb.

Uqandanın gender, əmək və sosial inkişaf üzrə naziri Betti Amongi Ongom isə indi əsas məqsədin çiçəklənən cəmiyyətin mədəni baxımdan tam formalaşması olduğunu qeyd edib. İnsan və qadın hüquqlarının əhəmiyyətindən danışan xanım nazir UNESCO-nun 2015-ci ildə qəbul edilmiş Konvensiyasına diqqət çəkərək mədəni hüquqların mühafizə edilməli olduğunu bildirib. O, təməl hüquqların qorunmasının insan haqları üzrə beynəlxalq qanunvericiliyə əsaslandığını, universal dəyərlərin mədəniyyətlərə də təsir göstərdiyini söyləyib.

Digər çıxış edənlər bəzi ölkələrdə qadınların cəmiyyətdən təcrid olduqlarını, qadın hüquqlarının pozulduğunu azyaşlıların insan alverinin qurbanına çevrildiyini və digər məsələləri diqqətə çatdırıb, problemlərin həlli yolları ilə bağlı fikirlərini bölüşüblər.



# VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Süni intellekt - təhdid yoxsa imkan?” mövzusunda üçüncü plenar sessiya təşkil olunub

“TC Holdings” platformasının qurucusu, beynəlxalq biznesmen, israilli texnoloji innovasiya üzrə mütəxəssis Tal Katranın moderatorluğu ilə keçirilən panel sessiyasında indiki dövrdə bu texnologiyaların tətbiqi, xüsusi olaraq süni zəkanın tətbiqi bütün sahələrdəki kimi mədəniyyət və yaradıcılıq sahəsində də öz yerini tutduğu diqqətə çatdırılıb.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov çıxışında Azərbaycanda süni intellektlə bağlı layihələr barədə ətraflı məlumat verib. O bildirib ki, hazırda geoməkan məlumatları müxtəlif sahələrdə istifadə edilir. Süni intellektin kənd təsərrüfatı, infrastruktur və inşaat, təhlükəsizlik və mühafizə, təbii ehtiyatlar, kommunal xidmətlər, istehsal və digər sahələrdə dünyada geniş tətbiq olunduğunu diqqətə çatdıran Fariz Cəfərov bu texnologiyaların Azərbaycanda da geniş istifadə olunduğunu vurğulayıb.



“İşğaldan azad edilmiş Qarabağda şəhərsalmada “ağıllı şəhər” və “rəqəmsal əkizlər”dən istifadə olunub. IV sənaye inqilabı texnologiyaları, o cümlədən süni intellekt üzrə çağırış və təşəbbüslərin təhlili, onların milli iqtisadiyyatda tətbiqi imkanlarının araşdırılması və bu fəaliyyətin koordinasiyası, “elm-sənaye klasteri 4.0”ın qurulması ilə bağlı dövlət, özəl və elmi müəssisələr arasında tərəfdaşlığın təşviqi kimi bir sıra digər fəaliyyətləri həyata keçirir. Azərbaycanda hazırlanan Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiyada 2030-cu ilə qədər reallaşdırılacaq 61 təşəbbüs, o cümlədən 9 aparıcı layihə nəzərdə tutulub. Bununla yanaşı, ölkədə Azərbaycan dili əsaslı Generativ Süni İntellekt sistemi qurulur”, - deyə Fariz Cəfərov əlavə edib.

Türkiyənin “Alegori Studio” şirkətinin kreativ direktoru Serdar Korkmaz süni intellektin insanlarda qorxu yaratmasının normal olduğunu qeyd edərək, bu texnologiyanın yalnız insanların yaradıcılığına dəstək məqsədi daşıdığını vurğulayıb. Süni intellektin artıq həyatımızda bir sıra məsələlərdə aktiv rol oynadığını bildirən Serdar Korkmaz cəmiyyətdə baş verən bu dəyişikliyin qaçılmaz olduğunu deyib.

Data üzrə mütəxəssis Pau Garcia bildirib ki, süni intellekt barədə danışarkən həm onun effektiv faydası, həm də gətirəcəyi ziyan və təhlükəsi diqqət mərkəzində saxlanılmalıdır.

"Sosial media kimi süni intellekt də həyatımıza böyük dəyişikliklər gətirir. Təhlükələr barədə danışmaq düşünürəm artıq gecdir. Çünki hamımız süni intellektin insanın şəxsi sərhədlərini hesaba almadan hərəkət etdiyi nümunələri ilə artıq tanışıq. Bura insan səsinin dəyişməsi, "deepfake" (simanın istifadə olunması) və s. alətlər daxildir. Biz təkcə neqativi deyil, süni intellektin bizə verə biləcəyi faydaları daha çox fikirləşməliyik. Misal üçün işimizdə, yaradıcılığımızda süni intellekt bizə necə kömək edə bilər. Düşünürəm ki, süni intellekt artıq mədəniyyətin əsas köməkçisinə çevrilib", - deyə P.Garcia vurğulayıb.

Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov deyib ki, bəşəriyyətin inkişafı üçün süni intellektin dəstək yoxsa təhdid olduğunu araşdıranda görürük ki, öncə biz məlumatları rəqəmsallaşdırırıq, sonra bunu süni intellekt vasitəsilə layihəyə çeviririk: "Süni intellekt hamımız üçün çağırışdır. Burada yeni sahələr, yeni istiqamətlər, yeni mədəniyyət nümunələri ortaya çıxır. İlk öncə süni intellektin insanların hüquqlarına necə təsir etdiyini müəyyənləşdirməliyik".

Panel sual-cavab sessiyası ilə davam edib.

# VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 1-də Dini liderlərin Bakı görüşü keçirilib

Azərbaycanın ev sahibliyi etdiyi VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 1-də Dini liderlərin Bakı görüşü keçirilib.

Dünyanın 30-dan çox ölkəsindən dini liderlərin qatıldıqları tədbirdə dinlərarası dialoq vasitəsilə etimadın möhkəmləndirilməsi, dindən sui-istifadə olunması hallarının qarşısının alınmasında birgə səylərin artırılması, müasir dünyanı, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə müharibələrə, qarşıdurmalara, dinlərarası ixtilaflara qarşı müxtəlif sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyi, iqlim dəyişikliyi və ekoloji böhran problemlərinə dinlərin münasibəti, media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin, ictimai və siyasi xadimlərin birgə fəaliyyəti və digər məsələlər müzakirə olunub, çağırışlar edilib, təkliflər səsləndirilib.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədr müavini Rəşad Əliyarlının moderatorluğu ilə keçirilən Bakı görüşündə açılış nitqi ilə çıxış edən QMİ sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Mədəniyyətlərarası Dialoq Forumu Prezident İlham Əliyevin təşəbbüsü ilə dünyanın nüfuzlu beynəlxalq qurumları – UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, ICESCO və Dünya Turizm Təşkilatını tərəfdaş kimi cəlb edən yeganə platformadır. Azərbaycan Prezidentinin müəllifi olduğu, 2008-ci ildən mədəniyyətlərarası dialoqun inkişafını nəzərdə tutan “Bakı Prosesi” beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlərin dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, dini liderlər, nüfuzlu alim və ekspertlər arasında səmərəli fikir mübadilələrinin aparılmasına əlverişli imkan yaradıb.

Qeyd edilib ki, dünyanın humanitar ideya mərkəzlərindən biri kimi çıxış edən Azərbaycan qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq əhəmiyyətli Zirvə görüşlərinə uğurla ev sahibliyi edir. Azərbaycanın multikultural dəyərləri təşviq edən qlobal ideyaları bölgənin, həmçinin bütün bəşəriyyətin mənafeyinə xidmət göstərir.



# Mədəniyyət naziri rusiyalı həmkarı ilə görüşüb

Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində görüşlər davam edir.

Mayın 1-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova ilə görüşü olub.

Rusiyalı həmkarını səmimi salamlayan nazir iki ölkə arasında mədəni əlaqələrin inkişafından məmnunluğunu bildirib. Qeyd olunub ki, son illərdə iki ölkənin bədii kollektivlərinin qarşılıqlı qastrol səfərləri, mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlıq və təcrübə mübadiləsi intensiv xarakter alıb.

Görüşə görə təşəkkürünü bildirən Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova Forumun əhəmiyyətini yüksək qiymətləndirib, tədbirdə aktual mövzuların müzakirə olunduğunu deyib.

Söhbət zamanı Azərbaycan-Rusiya mədəni əlaqələrinin qədim tarixinin və köklü ənənələrinin olduğu bildirilib.

Yaxın gələcəkdə Azərbaycanda keçirilməsi nəzərdə tutulan Rusiya Mədəniyyəti Günləri ilə bağlı fikir mübadiləsi aparılıb. Rusiyalı nazir ölkəmizi bu ilin sentyabr ayında təşkil olunacaq X Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumuna dəvət edib.

Görüşdə həmçinin iki ölkə arasında bədii təhsil üzrə tələbə mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.



# Rusiya Federasiyası ilə mədəni əməkdaşlığın perspektivləri nəzərdən keçirilib

Mayın 1-də Bakıda işə başlayan VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna təşrif buyuran bir sıra ölkələrin rəsmliləri ilə ikitərəfli görüşlər təşkil olunur, əməkdaşlıq məsələləri müzakirə edilir.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli Forum çərçivəsində Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ilə görüşüb.

Qonağı salamlayan nazir Azərbaycan-Rusiya münasibətlərinin bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində uğurla inkişaf etdiyini bildirib. Qeyd olunub ki, ölkəmiz Rusiya ilə mədəni əməkdaşlığa xüsusi diqqət yetirir.

Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy Forumda iştirakından məmnunluğunu bildirib, müzakirə edilən mövzuların aktuallığına diqqəti çəkib.

Söhbət zamanı iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin inkişaf perspektivləri nəzərdən keçirilib. Ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) Rusiyanın iştirakının əhəmiyyəti qeyd olunub.



# Mədəniyyət naziri iranlı həmkarı ilə görüşüb

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli mayın 1-də İran İslam Respublikasının mədəniyyət və islamı irşad naziri Məhəmməd Mehdi İsmaili ilə görüşüb.

Foruma qatıldığına görə iranlı həmkarına təşəkkürünü bildirən nazir "Bakı Prosesi"nin mədəniyyətlərarası dialoqla bağlı qlobal platforma kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirildiyini deyib.

Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) haqqında qonağa məlumat verən nazir bildirib ki, mötəbər tədbirdə iqlim dəyişikliklərinin mədəni proseslərə təsiri məsələləri də müzakirə olunacaq.

Məhəmməd Mehdi İsmaili öz növbəsində Foruma dəvətə görə təşəkkürünü bildirib, tədbirin gündəmə gətirilən mövzuların aktuallığı baxımından əhəmiyyətini qeyd edib.

Söhbət zamanı mədəni əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub.



# Azərbaycan-UNESCO əməkdaşlığı müzakirə olunub

Mayın 1-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən UNESCO baş direktorunun sosial və humanitar elmlər üzrə köməkçisi Qabriela Ramos ilə görüşüb.

Qonağı salamlayan nazir Azərbaycan-UNESCO əlaqələrindən söz açıb, təşkilatın "Bakı Prosesi" çərçivəsində bu il altıncısı keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ənənəvi tərəfdaşları sırasında yer almasını məmnunluqla qeyd edib. Nazir bildirib ki, Azərbaycan dövlətinin "Bakı Prosesi" qlobal platformasının inkişafı ilə bağlı müxtəlif ideyaları var və bunu UNESCO ilə bölüşməyə hazırdır. Ölkəmiz təşkilatla müxtəlif sahələrdə, o cümlədən süni intellekt sahəsində əməkdaşlıqda maraqlıdır.

UNESCO baş direktorunun köməkçisi Qabriela Ramos görüşə görə təşəkkürünü bildirib, Forumda iştirakından məmnunluğunu ifadə edib.

Söhbət zamanı UNESCO-nun bu il Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) təmsil olunmasının, tərəfdaş qismində çıxış etməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Forumu çərçivəsində nazirlərin 5-ci görüşü keçirilib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 1-də Bakı Konqres Mərkəzində nazirlərin 5-ci görüşü təşkil edilib.

"Müxtəliflik harmoniyası: qlobal mədəni intibah naminə mədəniyyətlərarası dialoqun təşviqi" mövzusuna həsr olunan görüş Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin sədrliyi ilə keçirilib.

Qonaqları salamlayan Adil Kərimli bildirib ki, dünyada etnik və milli zəmində qarşıdurmaların yaşandığı bir vaxtda Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri dinc yanaşı, mehriban bir ailə kimi yaşayırlar: "Ölkəmiz beynəlxalq aləmdə tolerantlığa örnək göstərilir. Biz öz tarixi-mədəni irsimizlə yanaşı, tolerantlıq ənənələrimizi də qoruyub təbliğ edirik".

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) mədəniyyət naziri Şeyx Salem Xalid Abdulla Məhəmməd əl-Qasimi bildirib ki, Forum əlamətdar bir dövrə təsadüf edir. Bakı COP29-a ev sahiblik etməyə hazırlaşır: "Ötən il COP28 bizim ölkəmizdə – Dubay şəhərində keçirildi. Orada da biz nazirlərin konfransını keçirdərək müxtəlif istiqamətlər üzrə müzakirələr apardıq".




Belarus Respublikasının mədəniyyət naziri Anatoli Markeviç çıxışında deyib: "Biz əlimizdən gələni edirik ki, Belarus sülh ərazisi olaraq qalsın. Belarus çoxmillətli ölkədir – 130-a yaxın icma yaşayır. Biz abidələrimizin qorunmasına xüsusi diqqət yetirik. Qəhrəmanlarımızı unutmuruq, onları hər zaman xatırladır, gənc nəslə çatdırırıq. Azərbaycanla Belarusla arasında yeni mədəniyyət körpüsü yaradılıb. Bu ilin 1-4 aprel tarixlərində Bakıda Belarus Mədəniyyəti Günləri keçirilib. Mədəniyyət günləri çərçivəsində iki ölkənin incəsənət xadimlərinin bir-birlərini tərcüməsiz anladıqlarının şahidi olduq".

Gürcüstan Baş nazirinin müavini, mədəniyyət və idman naziri Tea Sulukiani söyləyib ki, Cənubi Qafqaz elə bir bölgədir ki, burada müxtəlif din və mədəniyyətlərin nümayəndələri hər zaman yanaşı yaşayıb. Gürcüstanın əsrlər boyu formalaşmış mədəni zənginliklərini, qədim ənənələrini və təcrübəsini davam etdirəcək.

Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova müzakirə olunan mövzunun aktuallığından söz açıb. Bildirib ki, Forum çərçivəsində birgə dəyərlərimizi nümayiş etdirməliyik.

Liviyanın mədəniyyət və koqnitiv inkişaf naziri Mabroukah Toughi Othman Forumda müzakirəyə çıxarılan mövzular bəşəriyyətin ciddi ehtiyac duyduğu sülh və əmin-amanlığa öz töhfəsini verə bilər. Bəşəriyyət rasional şəklində fəaliyyət göstərməlidir ki, bu əsrin çağırışına cavab versin.

İranın mədəniyyət və islami irşad naziri Məhəmməd Mehdi İsmaili Forumun mədəniyyətlərarası dialoqun gücləndirilməsinə xidmət etdiyini bildirib: “Dünya xalqları olaraq sülh şəraitində yaşamağımız çox vacibdir. Hesab edirik ki, beynəlxalq təşkilatların əsas rollarından biri də sülh və əmin-amanlığının qorunmasıdır”.

Daha sonra ölkəmizdə akkreditə olunan səfirlərin və digər rəsmi şəxslərin mövzu üzrə məruzələri dinlənilib.

## Beynəlxalq təşkilatların “Yaşıl gələcəyə davamlı yol: COP29 və sonrakı dövr üçün birgə fəaliyyət” adlı III Zirvə görüşü keçirilib

Bakıda “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində beynəlxalq təşkilatların “Yaşıl gələcəyə davamlı yol: COP29 və sonrakı dövr üçün birgə fəaliyyət” adlı III Zirvə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, “The Guardian” qəzetinin ətraf mühit üzrə redaktoru Fiona Harvinin moderatorluq etdiyi tədbirdə açılış nitqi ilə çıxış edən ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev bu il beynəlxalq ictimaiyyətin diqqətinin ölkəmizə, xüsusilə də ətraf mühitin qorunması və iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində fəaliyyətə yönələcəyini qeyd edib. O bildirib ki, qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyinin ölkəmizə həvalə edilməsi yüksək etimadın və inamın növbəti göstəricisi, beynəlxalq təşkilatlarla formalaşdırılmış uğurlu əməkdaşlığın nəticəsidir. Nazir deyib ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qürurverici qərar həm də ölkəmizin yaşıl gələcəklə bağlı hədəflərinin məntiqi davamıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi isə bu missiyaya verilən dəyəri təsdiqləyir.

“Bu il COP29-dan gözləntilər çoxdur. İqlim maliyyəsi COP29-un əsas mövzusudur. COP29 çərçivəsində qlobal iqlim gündəliyində olan iqlim maliyyəsi üzrə razılaşmağa gəlinməsi, iqlim dəyişikliyi mövzusunda qlobal həmrəyliyin gücləndirilməsi barədə müxtəlif ölkələr, təşkilatlar, akademik dairələr, qeyri-hökumət təşkilatları ilə intensiv danışıqlar aparılır. COP29-un uğurlu nəticələnməsi istiqamətində mümkün həll yolları üzərində fəaliyyət həyata keçirilir”, - deyə M.Babayev qeyd edib.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxışında hazırda COP29 komandasının substantiv məsələlər üzrə üç əsas istiqamətdə fəaliyyət göstərdiyini qeyd edib. Onun sözlərinə görə, bunlardan birincisi danışıqlar prosesinə hazırlıqdır: “Hələ ki, COP29-un yekun sənədləri üzrə danışıqlar prosesi başlamayıb. Lakin həmin prosesə hazırlıq məqsədilə müxtəlif tərəf dövlətlərlə bu prosesin qeyri-tərəf olan iştirakçıları ilə aktiv məsləhətləşmələr, konsultasiyalar aparılır. Nəticədə onların mövqeləri öyrənilir və indidən danışıqlar prosesinin strategiyası hazırlanır.

İkinci istiqamət olaraq, biz “Sədrin fəaliyyət gündəliyi” adlandırılan COP29 sədrliyinin təşəbbüsləri və COP29-un sədri olaraq Azərbaycana daxil olan digər ölkə və təşkilatların təşəbbüsləri barədə məlumatları alıb təhlil edib və onların əsasında öz fəaliyyət gündəliyimizi hazırlayırıq.

Nəhayət, üçüncü istiqamət: milli səviyyədə Azərbaycan hansı tədbirlər görməlidir, hansı addımlar artmalıdır ki, özü qlobal miqyasda bir nümunə göstərə bilsin? Bu istiqamətdə də konsultasiyalar, fəaliyyətlər aparılır”.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos COP29-a ev sahibliyi edəcəyi üçün Azərbaycana təşəkkürünü bildirib və deyib: “Həqiqətən də COP29-u təşkil etdiyi üçün Azərbaycana təbriklərimizi çatdırmaq istəyirik. Biz əminik ki, bütün komandanın tam səyi ilə COP29-un uğurlu keçirilməsinə nail olacağıq. Bu tədbirdə iştirak etmək bizim hər birimizin öhdəliyidir”.

Öz çıxışında iqlim dəyişmələrinin beynəlxalq gündəliyi tutan ekoloji problemə çevrildiyini deyən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik fikirlərinə belə davam edib: “Həmin qlobal məsələ real bir haldır və fəsadlarını aradan qaldıra bilməsək, gələcək nəsillər üçün problem yaranacaq. Odur ki, təxirəsalınmaz və təcili tədbirlərin həyata keçirilməsi vacibdir. Yüksək ambisiyalı gələcək təmin etmək vəzifələrimizdəndir. Yaşıl enerjiyə keçidin təmin edilməsi, onun əhatə dairəsinin genişləndirilməsi, yardımçı institutların hazırlanması və adaptasiya işlərinin həyata keçirilməsi zəruridir. Çünki təhdidlər heç bir sərhəd tanımır. Biz yalnız beynəlxalq əməkdaşlıq yolu ilə iqlim böhranlarını aradan qaldıra bilərik”.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubaniçbek Ömüralıyev iqlim dəyişikliyi ilə mübarizə məsələsinin TDT-nin gündəliyində olduğunu vurğulayıb: “Biz həmin qlobal problemin həllinə töhfə vermək üçün türk dövlətləri arasında əməkdaşlığı daha da möhkəmləndirməliyik”.

O, TDT-nin üzv ölkələrdə ətraf mühitin qorunması, “yaşıl enerji”yə keçid və digər məsələlərin təşviqinə böyük önəm verdiyini də diqqətə çatdırıb.

“COP29-da iqlim dəyişikliyi məsələsinin həlli üçün qətiyyətə yaxınlaşmağımız zəruridir” - deyən TÜRKSOY-un Baş katibi Sultan Raev qeyd edib ki, yaşıl iqtisadiyyata keçid üçün cəsur liderlik, yeni həllər, cəmiyyətin bütün təbəqələrinin iştirakını təmin edən səmərəli əməkdaşlıq vacibdir.

“Mədəni diplomatiyanın gücündən istifadə edən əməkdaşlığa əsaslanan fəaliyyətlər yolu ilə gələcək nəsillər üçün davamlı inkişafa nail ola bilərik. İqlim dəyişikliyi təkcə bioloji müxtəlifliyi, təbii mühiti deyil, mədəni irsi də təhdid edir. Odur ki, sərhədləri aşan mədəni fəaliyyətlər yaratmaq bizim borcumuzdur.

TÜRKSOY olaraq mədəni diplomatiya və ətraf mühit idarəsinin bir-biri ilə bağlı olduğunun fərqindəyik. Mədəni gücü ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmə üçün katalizator olaraq istifadə etməyə çalışırıq”, - deyə o bildirib.

Digər çıxış edənlər də iqlim dəyişikliyinin gələcəkdə səbəb olacağı fəsadlardan danışıb, problemin həlli üçün daha tutarlı addımlar atılmasının, ölkələrin üzərlərinə götürdükləri öhdəliklərə əməl etməsinin, bu istiqamətdə beynəlxalq əməkdaşlığın vacibliyini qeyd ediblər.



# “Tənzimlənməyən miqrasiyanı həll etmək üçün mövcud və çevik müntəzəm miqrasiya marşrutlarının təkmilləşdirilməsi: davamlı inkişaf üçün şəraitin yaradılması” mövzusunda panel sessiya təşkil edilib

Mayın 1-də “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Tənzimlənməyən miqrasiyanı həll etmək üçün mövcud və çevik müntəzəm miqrasiya marşrutlarının təkmilləşdirilməsi: davamlı inkişaf üçün şəraitin yaradılması” mövzusunda panel sessiya təşkil edilib.



# Mədəniyyət naziri liviyalı həmkarı ilə görüşüb

Xəbər verdiyimiz kimi, 1-3 may tarixlərində Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusuna həsr olunan Foruma 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq qatılıb.

Forumda panel sessiyalarla yanaşı, yüksək səviyyəli görüşlər keçirilir, əməkdaşlıq məsələləri müzakirə olunur.

Mayın 2-də mədəniyyət naziri Adil Kərimlinin liviyalı həmkarı xanım Mabruka Osman ilə ikitərəfli görüşü olub.

Qonağı salamlayan nazir Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" və bu platforma çərçivəsində bu il altıncı dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında məlumat verib. Bildirilib ki, "Bakı Prosesi" BMT tərəfindən mədəniyyətlərarası dialoqa üzrə əsas qlobal platforma kimi qəbul olunur.

Görüşə görə təşəkkürünü bildirən nazir Mabruka Osman Forumun əhəmiyyətini yüksək qiymətləndirib, bu mötəbər tədbirə dəvətə görə Azərbaycan tərəfinə minnətdarlıq edib.

Söhbət zamanı bu il ölkəmizin daha bir qlobal əhəmiyyətli tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi diqqətə çatdırılıb. Bildirilib ki, COP29-da iqlim dəyişikliyinin mədəniyyət sahəsinə təsiri, habelə ətraf mühitin qorunmasında mədəniyyətin rolu məsələləri ilə bağlı xüsusi müzakirələr aparılacaq.

Nazir Azərbaycanın qədim Şuşa şəhərinin ICESCO tərəfindən 2024-cü il üzrə "İslam mədəniyyətinin paytaxtı" elan edildiyini diqqətə çatdırıb, liviyalı həmkarını yaxın günlərdə keçiriləcək "paytaxt ili"nin açılış mərasiminə dəvət edib.



# “Sosial media: mədəniyyətlər və insanlar arasında körpü və ya sədd? – Forumun növbəti panel sessiyası

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə” mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu davam edir.

Mayın 2-də Bakı Konqres Mərkəzində forumun V panel sessiyası keçirilib.

“Sosial media: mədəniyyətlər və insanlar arasında körpü və ya sədd?” mövzusuna həsr olunan panel ADA Universiteti Kommunikasiya və rəqəmsal media proqramının rəhbəri Şəfəq Mehrəliyevanın moderatorluğu ilə gerçəkləşib.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Mədəniyyət departamentinin rəhbəri Lhoucine Rhazoui çıxışında deyib ki, sosial medianın məqsədi insanlar arasında düşmənçilik yaratmaq deyil, əksinə qarşılıqlı əlaqəni, ünsiyyəti təmin etməkdir.

Amerika Dövlətləri Təşkilatının komissarı Fernando Lottenberq sosial platformaların zərərlərindən danışıb. Söyləyib ki, ifadə azadlığı anlayışı sosial platformalarda nifrət nitqinin yayılmasına səbəb ola bilər.

Strateji Araşdırmalar İnstitutunun direktoru, səfir Sohail Mahmud bildirib ki, bəzi ölkələrdə sosial dəyişiklərdə sosial media müsbət rol oynayıb. Amma digər tərəfdən isə sosial media dezinformasiyaların da yaranmasına gətirib çıxarıb. Ona görə də sosial platformalardan böyük həssaslıqla istifadə etmək lazımdır.

Argentina Respublikası müdafiə nazirinin müşaviri, jurnalist Bryan Mayer müharibə və sosial media mövzusuna toxunub: “Sosial media hesabımız yaradıldıqdan sonra milli hərbi akademiyamıza üz tutan gənclərin sayında artım müşahidə olundu. Düşünürəm ki, yaxşı niyyətlə istifadə olunsa, sosial media elə bir alətdir ki, hər zaman köməyimizə çata bilər”.

“Kaliber” analitik xəbər bülleteninin baş analitiki Orxan Amaşov sülhün bərqərar olunmasında sosial medianın rolundan danışıb. Sağlam niyyət olarsa, sosial media sülhə, əmin-amanlığa da öz töhfəsini verə bilər.

Panelin sonunda mövzu üzrə müzakirə aparılıb, suallar cavablandırılıb.



# “Turizm insanları birləşdirən və mədəniyyətlərarası dialoqu təşviq edən alət kimi” adlı panel sessiya keçirilib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də “Turizm insanları birləşdirən və mədəniyyətlərarası dialoqu təşviq edən alət kimi” adlı panel sessiya keçirilib.

"Turizm Araşdırmaları Salnaməsi”nin təsisçi-redaktoru Cəfər Cəfərinin moderatorluğu ilə keçən sessiyada çıxış edən Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev COVID pandemiyasından sonra bu il Azərbaycanda turizm sahəsinin tam bərpasına nail olunduğunu, xarici turistlərin sayında xeyli artım qeydə alındığını bildirib.

O, Azərbaycanda turizm sahəsinin inkişafına böyük diqqət yetirildiyini vurğulayıb: “Azərbaycanın turizm potensialı yüksəkdir. Həmçinin turizm insanları birləşdirmək imkanı yaradır. Bütün dünya üzrə turistlərin sayının artmasını nəzərə alaraq, fərqli mədəniyyətlərə malik insanlar davamlı şəkildə mübadilə edirlər. Turizm mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır".

BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Zoritsa Uroseviç çıxışında Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun çox yüksək səviyyədə təşkil olunduğunu deyib. "Forum vasitəsilə mədəniyyətlərarası dialoqa təsir göstərə bilirik. Turizmin gəlir yerlərinin yaradılmasında rolu məlumdur. Daha aydın desək, iş yerlərinin 10 faizi məhz turizmlə bağlıdır. Dünyada 2023-cü ildə 1 trilyondan çox turist qeydə alınıb. Bu, kifayət qədər böyük rəqəmdir. Bu mənada, turizmin daxili və beynəlxalq dialoqa necə şərait yaratdığını görürük”, - deyə Zoritsa Uroseviç vurğulayıb.



Sarayevo Şəhər Şurasının sədri Yasmin Ademoviç turizmlə bağlı gənclərdə ortaq fikrin çox olduğunu bildirib. O, gənclərə turizmlə bağlı daha çox məlumat verilməsinin vacibliyinə diqqət çəkib.

Tədbirdə çıxış edən “Songa Africa”nın təsisçisi Roset Şantal turizmin bərpası baxımından Ruandanın yaxşı nümunə olduğunu deyərək bildirib: "Bu ölkə kiçikdir və hazırda bərpa olunur. Turizmin bu baxımdan böyük rolu var. Ölkəmizdə yoxsulluğun aradan qaldırılması və statusunu yaxşılaşdırmaq üçün turizmi inkişaf etdirdik. Yenidənbərpa üçün turizm əsas şərtdir. Bu da sülh olmadan mümkün deyil".

Turizm sektorunda gənclər və istedadların inkişafı üzrə ekspert Lusi Qarner dünyada son zamanlarda gənclərin ciddi çağırışlarla üzləşdiyini deyib. Diqqətə çatdırıb ki, gənclərin fikirlərini dinləyib, onları dəyərləndirmək lazımdır. "Əsas məqsəd müxtəlif dinə və mədəniyyətə mənsub olan gənclərin ünsiyyətinə şərait yaratmaq olmalıdır. Bunun üçün birgə layihələr həyata keçirilməsi əsas şərtdir. Düşünürəm ki, mədəniyyətlərarası dialoq bu baxımdan böyük təsir göstərəcək", - deyə Lusi Qarner vurğulayıb.

Dünya Turizm Etikası Komitəsinin sədrinin icraçısı Daniela Otero turizmin inkişaf etdirilməsinin vacibliyindən danışıb. O, bu sahənin inkişafı üçün belə forumların keçirilməsinin önəmini vurğulayıb.

"Get up and go Colombia"nın həmtəsisçisi və direktoru Migel Karvaxal turizm sahəsində icmalara dəstək göstərən layihələrin vacibliyindən bəhs edib: "Bununla bağlı mərkəzlər daha çox qurulmalı, həmin yerlərdə insanlara turizmlə bağlı məlumatlar verilməlidir. Düşünürəm ki, bütün ölkələrdə bu cür yerlər olmalıdır. Çünki həqiqətən də, turizm çox vacib sahədir", - deyə M.Karvaxal diqqətə çatdırıb.

Panel sessiya işini müzakirələrlə davam etdirib.

# Ölkələrin UNESCO yanında daimi nümayəndələri ilə görüş

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də mədəniyyət naziri Adil Kərimlinin ölkələrin UNESCO yanında daimi nümayəndələri ilə görüşü keçirilib.

Görüşdə Azərbaycan-UNESCO əməkdaşlığından söz açılıb, ölkəmizin təşkilatın fəaliyyətində yaxından iştirakı qeyd olunub.

Diqqətə çatdırılıb ki, 2022-ci ilin oktyabr ayında Azərbaycanın UNESCO-nun 215-ci sessiyasının gündəliyinə təklif etdiyi "Bakı Prosesi”: dayanıqlı sülh və inkişaf üçün mədəniyyətlərarası dialoqu və sosial inklüzivliyi təşviq etmək" adlı qərar layihəsi yekdilliklə qəbul edilib. Bu dəstəyə görə ölkəmiz adından UNESCO-nun İcraiyyə Şurasına minnətdarlıq ifadə olunub.

Nazir Forum çərçivəsində mayın 3-də Ağdamda təşkil olunacaq “Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri” mövzusunda xüsusi sessiya barədə məlumat verib. Bildirilib ki, sessiya UNESCO-nun 2023-cü ildə qəbul etdiyi “Minaların mədəni mülkiyyətə təsirinə dair qətnamə”sinə həsr olunub.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı müzakirə aparılıb.



# Slovakiya nümayəndə heyəti Forumda gündəmə gətirilən məsələlərin aktuallığını qeyd edib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ikitərəfli görüşlər davam edir.

Mayın 2-də mədəniyyət naziri Adil Kərimli Slovakiya Respublikası Mədəniyyət Nazirliyinin dövlət katibi Mario Maruşka və Beynəlxalq əməkdaşlıq departamentinin direktoru Branislav Şalat ilə görüşüb.

Qonaqları salamlayan nazir "Bakı Prosesi" qlobal platforması haqqında məlumat verib, ölkəmizin beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqa töhfələrindən bəhs edib.

Mario Maruşka VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi mötəbər bir tədbirə qatılmasından məmnunluğunu bildirib, Forumun gündəmə gətirdiyi məsələlərin aktuallığını vurğulayıb.

Adil Kərimli Azərbaycanın ətraf mühit məsələlərinə, qlobal iqlim dəyişikliklərinə həssas yanaşdığını deyib, bu il ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçiriləcəyini diqqətə çatdırıb. Nazir Slovakiyanı COP29-da iştiraka dəvət edib.



# “Müasir inkişaf meyillərinin təmin edilməsində və iqtisadi şaxələndirmədə mədəni və yaradıcı sənayelərin əhəmiyyəti” mövzusunda panel sessiya keçirilib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Müasir inkişaf meyillərinin təmin edilməsində və iqtisadi şaxələndirmədə mədəni və yaradıcı sənayelərin əhəmiyyəti” mövzusunda panel sessiya keçirilib.

“ArtXchange Global”ın icraçı direktoru Ornela Ramasauskaitenin moderatorluğu ilə keçirilən sessiyada ABŞ-ın “Stirling Fondu”nun prezidenti və İdarə Heyətinin sədri Maylz Hansen çıxış edərək bildirib ki, dünyada millətçilik və qəbiləçiliyin olması münaqişələrin yaranmasına səbəb olan ən təhlükəli səbəblərdəndir. Onun sözlərinə görə, fəaliyyətlərini bu cür ideyalar üzərində quran qruplar və təşkilatlar bəşəriyyəti qütblərə bölür. Bu tendensiya tək Asiyada, şərqdə deyil, özünü ABŞ və Avropada da göstərir.

“Bu gün Azərbaycanda təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumu fərqli mədəniyyətlər və dinlərin birgə müzakirələr aparmasına şərait yaradır. Bu cür tədbirlər dünya mədəniyyətlərini bir araya gətirir”, - deyə M.Hansen bildirib.

Daha sonra “British Council”ın ölkə üzrə direktoru Nərgiz Hacıyeva məruzəçi kimi çıxış edərək təmsil olunduğu qurumun ölkəmizdə həyata keçirdiyi layihələrlə bağlı danışıb. O əlavə edib ki, “British Councıl” Azərbaycan Mədəniyyət Nazirliyi ilə birlikdə mühüm layihələr hazırlayıb. Bu layihələr nəticəsində Azərbaycan mədəniyyəti Birləşmiş Krallıqda və dünyada tanıdılıb.



“Bu il keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın reallaşdırdığı ekoloji və sosial layihələri dünyaya təqdim etməklə yanaşı, gənclərin geniş təcrübə qazanmasına da səbəb olacaq”, - dəyə N.Hacıyeva vurğulayıb.

“Alove Animasiya” studiyasının həmtəsisçisi və “Plastilin-media”nın həmtəsisçisi və rəhbəri Oktay Yusibov isə qeyd edib ki, Azərbaycan animasiya yaradıcılığını inkişaf etdirib qonşu və digər ölkələrdə nümayiş etdirməsi müsbət nəticələrə yol aça bilər. Onun sözlərinə görə, bunun sayəsində uşaqlar müxtəlif xalqların və ölkələrin mədəniyyətini tanıyacaqlar.

Rəqəmsal mediada baş məsləhətçi Nina Lariçeva ilk olaraq ölkəmizlə bağlı təəssüratlarını bildirib. O, Bakıya ilk dəfə gəldiyini deyərək Zaha Hadidin inşa etdiyi Heydər Əliyev Mərkəzinin incəsənət əsəri, Bakının dünyanın gözəl şəhərlərindən biri olduğunu əlavə edib. N.Lariçeva qeyd edib ki, bu gün dünyanın

animasiya və film sənayesində ABŞ məhsulları çoxluq təşkil edib. Qlobal bazara digər mədəniyyətlərə aid yaradıcılıq məhsullarının da olması lazımdır.

Daha sonra UNESCO-nun Banqladeşdəki daimi nümayəndəsi səfir Xondkar Muhammad Talha, “Bazelevs” film şirkətinin baş prodüseri Lalə Rüstəmova, Daxili Məlumat Yayıcıların Sosial təsir şöbəsinin tərəfdaş və rəhbəri Martina Nadal və Türkiyə Yaradıcı Sənayelər Şurasının Prezidenti WDO-nun (Dünya Dizayn Təşkilatı) Avropa üzrə regional müşaviri Sərtac Əray Ərsayın məruzələrlə çıxış ediblər.

# “Üfüqləri birləşdirərək: İpək yolu proqramının müasir trendləri və qlobal təsiri” mövzusunda 8-ci panel sessiya keçirilib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də Azərbaycanın Mərakeş Krallığındakı, eyni zamanda, Qambiyadakı səfiri Nazim Səmədovun moderatorluğu ilə “Üfüqləri birləşdirərək: İpək yolu proqramının müasir trendləri və qlobal təsiri” mövzusunda 8-ci panel sessiya keçirilib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxışında tarixi İpək yolunun bərpasının Avropa, Qara dəniz, Xəzər dənizi və Asiya regionlarında təbii ehtiyatlardan istifadəyə və qarşılıqlı faydalı əməkdaşlığa hər zaman kömək etdiyini bildirib. Azərbaycanın mövcud zəngin təbii xammal ehtiyatı və Avropadan Asiyaya uzanan ticarət yollarında əlverişli coğrafi mövqedə yerləşməsi onun dünya birliyində nüfuzunun güclənməsinə imkan verib. Böyük İpək yolunun inkişafı təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının dirçəlməsində, onun mənəvi oyanışı və inteqrasiya prosesində misilsiz rola malikdir.

“Azərbaycan UNESCO-nun müxtəlif layihələrində fəal iştirak edir. Beynəlxalq Türk Akademiyası ilə sıx əməkdaşlıq qurulub. İlk dövrlərdə Şərq-Qərb əlaqələrinin yaxınlaşması prosesində əlaqələndirici amil rolunu oynayan Böyük İpək yoluna hazırda mədəniyyət yolu ilə yeni nəfəs verilməsi çox böyük önəm daşıyır", - deyə F.Cəfərov vurğulayıb.



Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev qeyd edib ki, İpək yolu mövzusu bir sıra dövlətlər üçün böyük maraq kəsb edir. İpək yolu tarixi fenomenlərdən biridir. Türk millətləri bu yolun qorunub saxlanılması üçün çox səylər göstərib. Bəşər tarixində ilk transkontinental ticarət və diplomatiya yolu kimi qiymətləndirilən Böyük İpək yolu eradan əvvəl II əsrdən başlayaraq Çindən Qərb istiqamətində ticarət karvanlarının hərəkət etməsi sayəsində xarici ticarət əlaqələrinin yaranmasına səbəb olub.

“Odlar yurdu Azərbaycan hələ antik dövrlərdə Böyük İpək yolu zəncirində olduqca önəmli, strateji mövqeyə malik bir region kimi qiymətləndirilib. Şərq və Qərb ölkələri arasında ticarət yollarının ölkəmizin ərazisindən keçməsi Azərbaycanın bölgənin siyasi və iqtisadi inkişafında önəmli rolunu artırıb, - deyə Ş.Mustafayev əlavə edib.

UNESCO-nun İpək yolu üzrə nümayəndəsi Mehrdad Shahabang bildirib ki, İpək yolu tarixən texnoloji biliklərin ötürülməsində müstəsna rol oynayıb.

Şri-Lankanın UNESCO yanında daimi səfiri xanım Manişa Qunasekera İpək yolunun inkişafında Çinlə yanaşı, müxtəlif bölgələrin də böyük rol oynadığını diqqətə çatdırıb.

Diplomat qeyd edib: "Böyük İpək yolunun və Şərq-Qərb enerji dəhlizi sisteminin yaranması, mövcud və perspektivli nəqliyyat dəhlizləri XXI əsrin qlobal tarixi hadisələrindəndir. Müasir dövrdə Avropa və Asiyanın mərkəz hissəsində yerləşən, 34-dən çox dövlətin ərazisindən keçərək onları birləşdirən tarixi İpək yolunun əhəmiyyəti ölçüyəgəlməzdir".

Prezident İlham Əliyevin Forumun açılış mərasimindəki çıxışına da toxunan Manişa Qunasekera bildirib ki, Azərbaycanın baxışları "Bir kəmər, bir yol" təşəbbüsünün ümumi vizionu ilə də üst-üstə düşür.

Qazi Universiteti Təhsil fakültəsinin Sosial elmlər təhsili bölməsinin professoru Bülent Aksoy diqqətə çatdırıb ki, İpək yolu qlobal ticarətdə çox böyük rol oynayır. Çindən başlayaraq Anadolu və Aralıq dənizindən keçib Avropaya uzanan ticarət yolu əsrlər boyu Şərqlə Qərb arasında ticarət mallarının daşınmasını təmin edıb. Aralarında Türkiyənin də olduğu 65 ölkənin iştirak etdiyi bu layihə dünya əhalisinin 60 faizə yaxınını, yəni təxminən 4,4 milyard insanı əhatə edir. Layihənin ən mühüm məqsədlərindən biri dəmir və quru yolları, dəniz və hava limanları, qaz kəmərləri və digər infrastruktur layihələri həyata keçirərək qitələrarası inteqrasiyanı təmin etməkdir.

# VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun X panel sessiyası keçirilib

"Peace4Culture" qlobal çağırışı: Mərkəzi Asiya və Qafqazda BMTSA Gənc Sülh Qurucuları Proqramının işə salınması" mövzusuna həsr olunan sessiya BMT Sivilizasiyalar Alyansının əməkdaşı Dana Podmolikovanın moderatorluğu ilə gerçəkləşib.

Panel sessiyada BMTSA-nın gənc sülh qurucuları Dania Abraham, Anand Cunior Bharratt, Hazhir İbrahim Əziz Əlcəf, Sarra Messaudi və Denis Adesina Danielin məruzələri dinlənilib.

Məruzələrdə gənclərlə işin prinsipləri, onlara sülh anlayışını aşılamağın meyar və üsulları haqqında məlumat verilib. Qeyd olunub ki, proqramın əsas gücü onun çevikliyi və təsirliliyidir. Burada beynəlxalq əməkdaşlıq və şəbəkələşmə amili xüsusi əhəmiyyət kəsb edir. Vurğulanıb ki, Gənc Sülh Qurucuları Proqramı efektivliyini artırmaq üçün digər beynəlxalq təşkilatların da dəstəyinə ehtiyac var.

Daha sonra gənc sülh yaradıcılarının Misir, Tunis, İraq, Mərakeş və s. ölkələrdə fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.



# Forumun IX panel sessiyası “Münaqişədən sonrakı dövrlərdə mədəniyyətin dirçəldilməsi və qorunması üçün davamlı sülhün təmin edilməsi” mövzusuna həsr olunub

Forumun mayın 2-də keçirilən IX panel sessiyası “Münaqişədən sonrakı dövrlərdə mədəniyyətin dirçəldilməsi və qorunması üçün davamlı sülhün təmin edilməsi” mövzusuna həsr olunub.

Sessiyanın moderatoru Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev məruzəçiləri təqdim edib.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova qurumun fəaliyyəti haqqında məlumat verib. Qeyd edib ki, fondun əsas missiyası türk xalqlarının zəngin mədəni irsinin qorunub saxlanılması və təbliğidir: "Bu gün Azərbaycan işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işləri həyata keçirir. Fond olaraq bu prosesə öz töhfəmizi verməyə hazırıq".



ICESCO-nun İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro deyib ki, mədəniyyətdən bəhs olunarkən yalnız abidələr və irs deyil, eyni zamanda insanlar başa düşülməlidir: “Mədəniyyət tək keçmişə aid deyil. Fikrimcə, insanlar bu gün nəyi qoruyacaqlarına özləri qərar verməlidir”.

Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar Qarabağ və Şərqi Zəngəzurlu bir ailənin övladı olduğunu söyləyib: "30 ilə yaxın bir dövrdə düşmən mənim də uşaqlıq dövrümün keçdiyi Qarabağda mədəni abidələri tamamilə məhv edib”.

UNESCO üzrə Türkiyə Milli Komissiyasının prezidenti professor Öcal Oğuz bildirib ki, mədəni irsin qorunmasında, sülhün bərqərar edilməsində təhsilin rolu olduqca vacibdir: “UNESCO dünyaya barışın, sülhün gətirilməsi məqsədilə yaradılıb. Biz bəşəriyyət olaraq bunu bacardıqmı deyə sual edərsək, ətrafımızda bu müharibəni durdura bilmədiyimizə görə deyə bilərəm ki, bacara bilmədik. Ancaq biz ümidsiz deyilik. Bu sahədə fəaliyyətimizi davam etdiririk”.

Tanınmış azərbaycanlı fotoqraf Reza Deqati bu günə qədər şahidi olduğu müharibələrin nəticələrini əks etdirən yüzlərlə fotolar çəkdiyini söyləyib: “Mən bundan sonra anladım ki, müharibə zamanı yaranan əsas dağıntı gözə görünməyən dağıntıdır. Bu gözəgörünməz dağıntı insanın ruhudur”.

Çıxışlardan sonra sessiya iştirakçılarının sualları cavablandırılıb.

# “Müxtəlifliyin qorunması: multikultural dünyada çağırışlar və qlobal əməkdaşlığın təşviq edilməsi” mövzusunda panel sessiyaya təşkil edilib

Bakıda keçirilən “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də “Müxtəlifliyin qorunması: multikultural dünyada çağırışlar və qlobal əməkdaşlığın təşviq edilməsi” mövzusunda panel sessiyaya təşkil edilib.

Beynəlxalq Hüquq və Dini Araşdırmalar Mərkəzinin direktor müavini xanım Elizabet A.Klarkın moderatorluğu ilə keçirilən sessiyada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov açılış nitqi ilə çıxış edib.

O qeyd edib ki, müxtəlif mədəniyyətlər və inanclar arasında körpü yaratmaq inklüziv və multikultural cəmiyyətlərin xüsusiyyətidir. Əməkdaşlıq olmadan bu körpülər yaradıla bilməz. Əməkdaşlıq cəmiyyətdə təcrid olunmuş və azlıq təşkil edən qruplar üçün inteqrasiya imkanları yaradır.

R.Həsənov, eyni zamanda, bildirib ki, multikultural cəmiyyətin formalaşmasına müxtəlif maneələr yaratmaq insanlar arasında nifrətin yayılmasına səbəb olur. "Multikultural cəmiyyət yaratmaq ictimai birliyə nail olmağın həlledici yollarından biridir. İctimai birliyə nail olmaq bu gün hökumətlərin və dövlətlərin qarşısında duran prioritetlər sırasındadır. Bu, çox mürəkkəb və vaxtaparan prosesdir. Amma bu, bizi ruhdan salmamalıdır. Biz beynəlxalq əməkdaşlığımızı, dostluğumuzu gücləndirməliyik”, - deyə icraçı direktor vurğulayıb.

Sessiyada çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru professor Kamal Abdulla ölkəmizdə multikultural dəyərlərin son dərəcə yüksək qiymətləndirildiyini söyləyib. Diqqətə çatdırıb ki, bu, həm Azərbaycan dövlətinin apardığı siyasətin tərkib hissəsidir, həm də xalqımızın canından, qanından gələn hisslərdir.

O bildirib ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev başqa dinin nümayəndələrinə, digər millətlərə hər zaman böyük hörmətlə yanaşırdı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev bütün konfessiyalara, milli müxtəlifliklərə eyni siyasi münasibəti bəsləməsi ilə multikultural təhlükəsizliyi təmin edib.

“Hər dövlətin bir çox təhlükəsizlik doktrinaları var. Ölkəmizin əsas məqsədi bütün konfessiyaların, milli azlıqların nümayəndələrinin özlərini Azərbaycanda rahat, bərabər hiss etməsidir. Azərbaycan Prezidenti bütün konfessiyalara eyni münasibət bəsləyir. Heç bir konfessiyanı, milli icmanı digərindən ayırmır. Bu, dövlətimizin başçısının verdiyi qərarlarda da özünü göstərir”, - deyə Kamal Abdulla vurğulayıb.

Pakistanın UNESCO yanında daimi nümayəndəsi səfir Asim İftixar Əhməd çıxışında bildirib ki, dünyada hələ də həllini gözləyən bir çox böhranlar, münaqişələr var. Hazırda dünyada irqi ayrı-seçkilik kimi bir çox başqa ciddi problemlərlə qarşılaşırıq.

O deyib ki, dialoq çox önəmlidir, lakin bu gün sülh üçün kifayət edəcək qədər deyil. “Bakı Prosesi” və bu kimi digər platformalar sivilizasiyalar arasında körpü yaratmaq məqsədi daşıyır.

İsa Məsihin Son Günlər Müqəddəsləri Kilsəsinin Mərkəzi Avropa və Avrasiya üzrə prezidenti Cek Noel Gerard isə qarşılıqlı hörməti və anlaşmanı yüksək qiymətləndirdiklərini söyləyib. Qeyd edib ki, onlar dünyanın bütün inanclarında olan dəyərlərə hörmət edirlər.

“Müxtəlif dinlər, mədəniyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq körpüləri qurulmalıdır. Bununla biz dünyanın qarşıladığı çağırışlarla mübarizə apara bilərik. Əməkdaşlıq çərçivəsində dəstəyə həqiqətən ehtiyacı olan şəxslərə ləyaqətli şəkildə kömək göstərə bilərik”, - deyə Cek Noel Gerard vurğulayıb.

Xarici Regional Araşdırmalar Departamentinin rəhbəri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Yekaterinburq filialının Ural Federal Universitetinin rəhbəri Aleksandr Nesterov isə diqqətə çatdırıb ki, multikulturalizm termin olaraq qədim deyil. Lakin onun özündə ifadə etdiyi hər bir anlayış qədim tarixə malikdir.

“Azərbaycan, xüsusilə də bu ölkənin Prezidenti multikulturalizmi dövlət siyasətinin əsasına çevirib. Bununla belə, multikulturalizm, yəni, müxtəlif azsaylı xalqların, ayrı-ayrı konfessiyaların və mədəniyyətlərin tarixən bir yerdə olması Azərbaycan xalqının həyat tərzidir”, - deyə o əlavə edib.

Banqladeşin sabiq səfiri və İƏT-in Avropa İttifaqındakı keçmiş daimi müşahidəçisi İsmət Cahan vurğulayıb ki, Azərbaycan multikulturalizm cəhətdən olduqca inkişaf etmiş ölkədir. Mədəniyyətlərarası dialoq sülh, mədəniyyət və qarşılıqlı anlaşmanı formalaşdırır.

İnsanların sülh şəraitində yaşamasının önəmli olduğunu vurğulayan İ.Cahan diqqətə çatdırıb: "Təəssüf ki, dünyada siyasi və dini baxımdan ayrı-seçkilik var. Bu, cəmiyyətdə sülhün bərqərar olması üçün problem yaradır. Dinlərarası dialoqlarda üst-üstə düşən məqamlar olsa da, fərqli fikirlər də mövcuddur. Bu zaman, ilk növbədə, dinləmə və dialoqun qurulması əsas şərtdir. Bunun üçün isə ortaq həll yolları tapılmalıdır".

Panel sessiyada çıxış edən ABŞ-ın Daxili Təhlükəsizlik Departamentinin sabiq direktor müavini Janna Skot gənclərin qlobal sahəyə cəlb olunmasının önəmindən bəhs edib. Bildirib ki, bu vasitə ilə onlar arasında kommunikasiya yaratmaq mümkündür.

Dinlərarası Dindarlıq Proqramının direktoru, professor Kamal Abu-Şamsieh, Parisdəki Ərəb Dünyası İnstitutunun direktoru, sabiq mədəniyyət naziri Kərim İfrak və "CAGE International"ın icraçı direktoru Muhammad Əbdur Rabbani çıxışları zamanı sülhün dünya üçün son dərəcə vacib olduğunu vurğulayıblar. Bildirilib ki, yoxsulluq, şiddət və ayrı-seçkilik aradan qaldırılmalıdır.

Panel sessiyası işini müzakirələrlə davam etdirib.



# "Keçmiş və gələcəyin mühafizəsi: iqlim dəyişikliyi fonunda mədəni irs" mövzusunda IV plenar sessiya keçirilib

Mayın 2-də Bakı Konqres Mərkəzində Forumun sonuncu – IV plenar sessiyası keçirilib.

"Keçmiş və gələcəyin mühafizəsi: iqlim dəyişikliyi fonunda mədəni irs" mövzusuna həsr olunan sessiya Böyük Britaniyanın UNESCO üzrə Milli Komissiyasının baş icraçı direktoru və baş katibi Ceyms Bricin moderatorluğu ilə gerçəkləşib.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova mədəni irsin əsrlər boyu hər bir xalqın dünyaya baxışı və həyat tərzindən qaynaqlanan, onun müxtəlif inkişaf mərhələlərini özündə əks etdirən, milli kimliyin daşıyıcısı olduğunu deyib. Bildirib ki, mədəni irs hər bir dövrdə kommunikasiya və sosiallaşmanın məhsulu olmaqla həm tarixi keçmişə baxmağa, həm də gələcəyi proqnozlaşdırmağa imkan verir: "Lakin mədəni irs bütün zamanlarda ətraf mühitin tərkib hissəsi olmaqla iqlim və münaqişələrin təsirinə məruz qalıb. XIX və XX əsrin sənayeləşməsi və böyük müharibələr bu prosesi daha da sürətləndirib. Bu gün isə bu çağırışlar, xüsusilə iqlim dəyişiklikləri qlobal xarakter alıb. İqlim dəyişiklikləri insan sağlamlığı, kənd təsərrüfatı, sənaye və digər sahələrlə yanaşı, mədəni və təbii irsə də öz mənfi təsirini göstərir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfəsini verir. Ölkəmiz tərəfindən əsasən öz maliyyə vəsaitləri hesabına ətraf mühitin qorunması, yaşıllıqların bərpası, artırılması, təbii ehtiyatlardan, o cümlədən su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə imkanlarının genişləndirilməsi istiqamətində mühüm işlər görülür. Bütün bunların davamı olaraq iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub".

Səadət Yusifova vurğulayıb ki, iqlim dəyişikliyi ilə bərabər, müharibələr də mədəni və təbii irsin dağıdılması ilə nəticələnir: "Təəssüflər olsun ki, torpaqlarımızın 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğalı mədəni və təbii irsimizin dağıdılmasına gətirib çıxarıb, milli irsimiz mədəni soyqırımına məruz qalıb. Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Eyni zamanda aparılan təhlillər nəticəsində müəyyən olunub ki, işğal dövründə onlar məqsədli şəkildə dağılmaya, vandalizmə məruz qalıb, 47 abidə yer üzündən silinib. 163 abidə təhlükəsizlik səbəbindən inventarlaşdırılma aparılmayan abidələrdir. Bu abidələr əsasən mina və sursat partlayışı riski olan ərazilərdədir. Bu abidələrin bərpası və konservasiyası Böyük Qayıdış prosesinin tərkib hissəsidir".

Çin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondunun (CBCGDF) baş katibi Jinfeng Zhou çalışdığı qurumun tarixi haqqında söz açıb. Deyib ki, bu gün fond qarşısında duran ən ümdə məsələlərdən biri biomüxtəlifliyin qorunub saxlanılmasıdır.

Frison Horta Fondunun təsisçisi və baş direktoru Nupur Tron memarlıq üzrə apardığı araşdırmalardan danışıb. Vurğulayıb ki, mədəni irsin inkişafı üçün özəl sektorun bu işə cəlb olunması böyük əhəmiyyət kəsb edir.

ICESCO baş direktorunun müşaviri Heşam əl-Əskəri söyləyib ki, keçmişdə gələcəklə bağlı məlumat əldə etmək üçün müəyyən proqnazlaşdırılma lazım olub: "O vaxt alimlər bununla bağlı bir sıra araşdırmalar aparırdılar. Bu gün isə çox müasir texnologiyaları tətbiq etməklə Yer kürəsində baş verən prosesləri araşdırmaq mümkündür. Bu araşdırmalar nəticəsində iqlim dəyişikliyi zamanı baş verə biləcək hadisələri öncədən görmək imkanımız olacaq".

"Smithsonian"ın Asiya Mədəniyyət Tarixi Proqramının direktoru, "Smithsonian"ın Antropologiya departamentinin Asiya, Avropa və Yaxın Şərq üzrə kuratoru Pol Maykl Taylor mövzu ilə bağlı öz təcrübələrindən bəhs edib.

Afrika Ümumdünya İrs Fondunun icraçı direktoru Albino Jopela fondun fəaliyyətindən danışıb.

Azərbaycan Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva ölkəmizdəki abidələrimiz haqqında məlumat verib. Qeyd edib ki, Azərbaycanda 7 mindən artıq memarlıq abidəsi mövcuddur. Bu abidələr müəyyən statuslarla qorunmaqdadır.

Küveyt Dövlətinin UNESCO yanında daimi nümayəndəsi, səfir Adam əl-Mulla iqlim dəyişikliyinin bəşəriyyət üçün ciddi təhdid olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görülməlidir.



# "Molla Nəsrəddin – çətin günlərin dostu" filminin çəkilişləri avqustda başlanacaq

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də "Molla Nəsrəddin – çətin günlərin dostu" filmi ilə bağlı mətbuat konfransı keçirilib.

Mətbuat konfransında TÜRKSOY-un baş katibi Sultan Raev, filmin ssenari müəllifi və baş rejissoru, Xalq artisti Vaqif Mustafayev, prodüseri Zaur Darabzadə media nümayəndələrinin suallarını cavablandırıblar.

Sultan Raev bildirib ki, Türk dünyasının ortaq folklor qəhrəmanı Molla Nəsrəddin haqqında bədii filmin çəkilməsi ilə bağlı qərar TÜRKSOY Daimi Şurasının 2023-cü ilin oktyabrında Şuşa şəhərində keçirilən 40-cı iclasında qəbul olunub.

TÜRKSOY Daimi Şurasının 2023-cü ilin oktyabrında Şuşa şəhərində keçirilən 40-cı iclasında alınan qərara əsasən, Türk dünyasının ortaq folklor qəhrəmanı Molla Nəsrəddin haqqında bədii film çəkilməsi qərara alınıb. Ekran əsəri təşkilata üzv ölkələrin mədəniyyət nazirlikləri və TÜRKSOY-un dəstəyi ilə ərsəyə gələcək.

Vaqif Mustafayev diqqətə çatdırıb ki, müştərək ekran əsərinin Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanda lentə alınması nəzərdə tutulur: "Filmdə türkdilli dövlətlərin kinemotoqrafçıları bir araya gələcək. Ən böyük məsuliyyət budur ki, bütün səylərimizi ortaya qoyub tamaşaçıları sevindirə bilək".

Zaur Darabzadə qeyd edib ki, filmin çəkilişlərinə bu ilin avqust ayında start veriləcək. 100 dəqiqəlik film qardaş türk respublikalarının hər birində çəkilməklə hissələrə bölünür. Baş rolda Türkiyənin tanınmış aktyorlarından birinin çəkilməsi nəzərdə tutulub. Filmin çəkilişlərinə 2024-cü ilin avqust ayından etibarən başlanılacaq və 2025-ci ildə ictimaiyyətə təqdim olunacaq.



## “Mədəni diplomatiya təcrübədə: mədəniyyətlərarası anlaşmanın inkişafı” mövzusunda panel iclas keçirilib

Mayın 2-də Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ikinci günündə Azərbaycanın mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun moderatorluğu ilə Mədəni liderlərin konsultativ görüşü – “Mədəni diplomatiya təcrübədə: mədəniyyətlərarası anlaşmanın inkişafı” mövzusunda panel iclas keçirilib.

C.Səlimxanov mədəniyyət diplomatiyasının artıq yumşaq gücə çevrildiyini qeyd edib. “Biz SSRİ-də yaşayan insanlar kimi bunu daha yaxşı bilirik. Biz bu mədəni təsirlərdən necə qorunmaq, yumşaq gücə qarşı müdafiə mexanizmi barədə fikirləşməliyik”, - deyə C.Səlimxanov vurğulayıb.

Malayziya Senatının sədri Mutang Tagal deyib ki, qloballaşma prosesində mədəniyyətlərarası sərhədlər daha tez silinir. Hər bir ölkə həm ölkədaxili, həm də xaricdə sülh və mehriban münasibətlərin qurulmasının tərəfdarıdır. Mədəniyyət diplomatiyası burada müstəsna rol oynayır və münaqişə, nifrət kimi mənfi təsirlərə qarşıdır. Qəzzada baş verən faciə zamanı mədəniyyət diplomatiyası olsaydı, orada aclıq olmazdı, təhlükəsizlik kimi həyati vacib şərtin mövcudluğu mümkün olardı.

"Azərbaycan Malayziya kimi çoxmədəniyyətlilik nümunəsidir. Multikultural mühitin qorunması və təbliği diplomatiyanın bir istiqamətidir. Biz rəqəmsal platformalar vasitəsilə muzeylərə virtual sərgilər təşkil edərək mədəniyyətlərin yayılması və millətlərin birləşməsi üçün bir sıra tədbirlər keçiririk. Təəssüflə bildirmək istərdim ki, son illərdə qloballaşma zəifləyib, dövlətlər arasında böyük aşılmaz sədlər qurulur, irqçilik artır. Buna görə də düşünürəm ki, belə bir Forumun keçirilməsi ölkələr arasında mədəniyyət diplomatiyasının - qarşılıqlı etimadın, sülhün və dostluğun yayılmasında əvəzsiz rol oynayır”, - deyə Malayziya parlamentinin nümayəndəsi vurğulayıb.

Rusiya Milli Musiqi Muzeyinin baş direktoru Mixail Brizkalov mədəniyyət diplomatiyasının yayılmasında musiqinin müstəsna rolunu qeyd edib. O bildirib ki, musiqi sərhəd tanımır. Əgər fərqli mədəniyyətlərə malik insanlar bir-birinin mahnılarını dinləyə, paylaşa bilirsə, bu digər sahələrdə də sınanmalıdır.

Westmister Universitetinin dosenti xanım Yemisi Sloane Laura bildirib ki, multikulturalizm sülhün əsasını təşkil edir. Mədəniyyət diplomatiyası sərhədləri aşır və digər mədəniyyəti qəbul etməyə çağırır. “Mən Bakıda bu iki gün ərzində Azərbaycan yeməklərindən daddım və çox bəyəndim. Qərara gəldim ki, bu mədəniyyətlə daha yaxından tanış olum. Problem mədəniyyətdə deyil, iyerarxiyada və özünü digərindən üstün tutmaqdadır. Digər mədəniyyətləri öyrənməklə yanaşı, onların ideologiyasını da mənimsəmək lazımdır”, - deyə Yemisi Sloane Laura vurğulayıb.

Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda isə çıxışında bildirib: “Bu gün biz danışırıq, müzakirələr aparırıq. Lakin düşünürəm ki, biz danışmaqdan daha çox iş görməyə çalışmalıyıq.

Prezident İlham Əliyev çıxışında çox vacib bir məsələyə diqqət çəkdi - suverenlik. Suverenlik təkcə ölkəyə aid deyil. On il sonra alimlər və tədqiqatçılar bugünkü günə dair mövzularla bağlı araşdırma aparmaq istəsələr, çox böyük çətinliklə qarşılaşacaqlar. Çünki bu gün artıq heç kim qəzet oxumur, hamı informasiyaları ağıllı telefonlar, planşetlər vasitəsilə alır. Təklif edirəm ki, biz birləşərək gələcəkdə də istifadə edə biləcəyimiz etibarlı resurs yaradaq”.

Yalovdan Haddassah Akademik Kollecinin elmi işçisi Elina Bardaç özünü bir sıra mədəniyyətlərin birləşməsinin təcəssümü hesab etdiyini deyib. O bildirib: “Çünki köklərimdə rus, yəhudi qarışığı var, həmçinin İngiltərədə yaşadığım üçün bu ölkənin mədəniyyəti ilə yaxından tanışam. Düşünürəm ki, mədəniyyət diplomatiyasında informasiyanın və onun təqdimat formasının rolu danılmazdır”.

Rusiya Teatr Sənəti İnstitutunun rektoru Qriqori Zaslavski deyib ki, hər il Rusiyada teatr festivalı keçirilir. Azərbaycan, Tacikistan, Qırğızıstan və digər ölkələrin teatrlarından tələbələr festivala gəlirlər və bir-birinə çox mehriban, dostcasına davranırlar. Mədəniyyətlər arasında sərhəd yoxdur, bu tələbələr bir-birinin mədəniyyətindən faydalanır və möcüzə baş verir. “Çox sevindirici haldır ki, bu il Qırğızıstanda, İssık-Kulda keçiriləcək teatr festivalına Azərbaycandan nümayəndə heyəti yenidən qatılacaq",- deyə o əlavə edib.

Qrabar İncəsənət Qoruğu Mərkəzinin direktoru Dmitri Sergeyev mədəniyyət diplomatiyasının xalqlar arasında müsbət istiqamətdə yayılmasının önəmini vurğulayıb.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver qeyd edib ki, fərqli mədəniyyətlərə, dinə və irqə mənsub insanların bir arada yaşamaları yalnız dialoq, qarşılıqlı anlaşma, hörmət və birgə yaşayışa səy göstərməkdən keçir. "Mədəniyyət diplomatiyası sayəsində dünyamızda sülh və əmin-amanlıq şəraitində yaşaya bilərik. Çoxmədəniyyətli coğrafiya yaratmalıyıq. Dinlər dinləri, mədəniyyətlər mədəniyyətləri, dillər dilləri yalnız dialoq vasitəsilə anlaya bilər", - deyə Akkan Suver vurğulayıb.

Birləşmiş Millətlər Universitetinin Siyasət əsaslı Elektron İdarəetmə üzrə əməliyyat bölməsində baş köməkçi ekspert Səlim Qriqori Zuğbi isə bildirib ki, dünyada sülh yalnız qarşılıqlı hörmət və anlayış nəticəsində bərqərar ola bilər.



# “Mədəni irsin mühafizəsində qanunvericiliyin rolu: uğurlu təcrübələr” mövzusunda parlamentlərarası konfrans keçirilib

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ikinci gün də aktual mövzuların müzakirəsi ilə davam edib.

Forum çərçivəsində mayın 2-də Bakı Konqres Mərkəzində “Mədəni irsin mühafizəsində qanunvericiliyin rolu: uğurlu təcrübələr” mövzusunda parlamentlərarası konfrans keçirilib.

Azərbaycan Respublikası Milli Məclisinin spikeri Sahibə Qafarovanın sədrliyi ilə keçən konfransda ölkəmizdə səfərdə olan parlament sədr və nümayəndələri iştirak edib. Sahibə Qafarova açılış nitqində bildirib ki, müharibələr mədəni irs üçün ən böyük təhlükədir. İşğal olunmuş ərazilərdə mədəni irsə hörmət edilməsi və qorunması üzrə beynəlxalq hüququn öhdəlikləri Ermənistan tərəfindən 30 il ərzində ciddi şəkildə pozulub: “İşğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı bərpa işləri aparılır. Burada prioritetlərdən biri də həmin ərazilərdə mədəni irsin bərpası və qorunmasıdır. Hazırda tarixi və dini abidələrimiz bərpa olunur və ya yeniləri inşa edilir”.

Mədəni irsin qorunması sahəsində ölkəmizdə mövcud qanunvericilik bazası haqqında da danışan Milli Məclisin sədri bildirib ki, Azərbaycanın mədəni irsin qorunması sahəsində fəaliyyəti təkcə milli səviyyə ilə məhdudlaşmır. Müxtəlif ölkələrdə bəşəriyyətin ortaq sərvəti sayılan mədəni irsin bərpası və qorunması üçün ardıcıl addımlar atılır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bu işə böyük töhfə verir.




Konfransda çıxış edən Türk Dövlətləri Parlament Assambleyasının baş katibi Mehmet Süreyya Er bildirib ki, parlamentlər mədəni irsin qorunmasının hüquqi və siyasi çərçivəsinin formalaşmasında, onun yaşadılaraq gələcək nəsillərə ötürülməsində mühüm və məxsusi rol oynayır. Bakı konfransının da bu işə töhfə verəcəyinə əminik.

Parlament diplomatiyasının imkanlarından danışan baş katib türk dövlətlərinin türk mədəniyyətinin varisləri olduğunu vurğulayaraq deyib: “Əcdadlarımızın bizə miras qoyduğu mədəni irsi gələcəyə daşımaq borcumuzdur”.

Beynəlxalq Parlamentlərarası Konqresin baş katibi Sitara Ayaz, Əlcəzair Milli Şurasının sədri Ali Qalibi çıxışlarında Azərbaycanın zəngin mədəni irsə malik olduğunu deyiblər. Vurğulanıb ki, "Bakı Prosesi" beynəlxalq təhlükəsizliyə və sülhə öz töhfəsini verir.

Əlcəzairli qonaq ölkəsində bu istiqamətdə maarifləndirmə işlərinin aparıldığını diqqətə çatdıraraq deyib: "Əlcəzair müstəmləkəçilikdən azad olan bir ölkədir və biz bununla bağlı təcrübəmizi paylaşmaq istəyirik. Ölkəmdə mədəni müxtəlifliyin qorunması ilə bağlı milli strategiya qəbul edilib. Məqsəd mədəni irsimizin qorunması və gələcək nəsillərə ötürülməsidir".

Mədəni irsin qorunmasında qanunvericiliyin təkmilləşdirilməsinin kifayət etmədiyini deyən parlamentarilər bu məsələdə yerli icmalar, vətəndaş cəmiyyətinin fəal olmalısına diqqət çəkiblər.

Rusiya Federasiyası Şurasının sədr müavini Konstantin Kosoçov qeyd edib ki, mədəni irsin qorunmasında Rusiyanın böyük təcrübəsi var: "Ölkəmizdə mədəni irsin qorunmasında federal qanunların əhəmiyyətli rolu var. Biz bu təcrübəni hər kəslə bölüşməyə hazırıq. Rusiyada 193 xalq yaşayır. Bu xalqların hər birinin öz dili var, elə nümunə üçün deyim ki, Azərbaycanla sərhəd olan Dağıstanda 14 dövlət dili mövcuddur. Rusiya onun sərhədləri çərçivəsində yaşayan bütün xalqlara tolerant münasibət göstərir və mədəni irsin qorunması istiqamətində mühüm addım atır".

# VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimi keçirilib

Mayın 2-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimi keçirilib.




Koventri Universitetinin İnam, Sülh və Sosial Münasibətlər Mərkəzinin təsisçi direktoru, professor Mayk Hardinin moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Prezident İlham Əliyevin mühüm fikirlərini əks etdirdiyi çıxışına və mədəniyyətlərarası dialoqa göstərdiyi xüsusi dəstəyə görə minnətdarlığını bildirib.

"Biz Forum çərçivəsində keçirilən tədbirlərdə daha inklüziv dünya və sülh yaratmaq üçün ən önəmli mövzuları müzakirə etdik. Bunlardan mədəniyyət və irs, təhsil, və texnologiya, din, miqrasiya, gənclərin proseslərə cəlb olunmaları və turizmin mədəniyyətlərarası dialoqa təsirini nümunə göstərə bilərik", - deyə nazir qeyd edib.

Forumda COP29-la bağlı önəmli mesajların çatdırıldığını bildirən A.Kərimli deyib: "Bizim əsas məqsədimiz mədəniyyətin iqlim dəyişikliyi məsələlərinin həllində önəmli yer tutmasıdır. Daha güclü və dayanıqlı gələcək üçün dəyişikliklər etməliyik".

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bildirib ki, Forumda iştirak edənlər bu sahədə maraqlı olduqlarını bir daha göstəriblər.

"Forum işini bitirdi və biz hamımız özümüzdə məsuliyyət hiss edirik. Ona görə ki, biz tolerantlığı və dinc yaşamağı təşviq etməliyik. Elm, təhsil və mədəniyyət sahələrində apardığımız fəaliyyət mühüm əhəmiyyətə malikdir. Əməkdaşlıq dəyərlərinə sadiq olmağa çalışırıq".

Ümumdünya Turizm Təşkilatının İcraçı direktoru Zoritsa Uroşeviç deyib ki, turizm bütün sahələr üzrə ən vacibidir. "Biz prioritetləri müəyyən etməkdə maraqlı olmalıyıq. Turizm sahəsində müqavilənin bağlanılması və həyata keçirilməsi ilə bağlı düşüncələrimiz var", - deyə o əlavə edib.

İcraçı direktor, həmçinin qeyd edib ki, gəncləri dinlənilməli, onların fikir və düşüncələrinə önəm verilməlidir. Gələcək gəncləri dinləmədən reallaşa bilməz. Çünki gənclər bizim gələcəyimizdir.

BMT-nin Sivilizasiyalar Alyansının (BMTSA) direktoru xanım Nihal Saad Forumda iki gün ərzində maraqlı müzakirələrin aparıldığını diqqətə çatdırıb.

“Bu Forumdakı mövzular aktuallığı ilə yadda qaldı. Forum növbəti uğura çevrildi. Mədəniyyətin iqlim dəyişikliyi sahəsində rolu böyükdür. Forumun bəşəriyyətin sivilizasiyasında vacib yer tutduğunu düşünürəm. Tədbirdə qlobal çağırışlar da edildi”, - deyə N.Saad vurğulayıb.

## VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Əbədi məşəl” adlı konsert keçirilib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də Heydər Əliyev Sarayında “Əbədi məşəl” adlı konsert keçirilib.

Konsertdə ifaçılar əvvəlcə dahi bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baletindən Vals və Adogionu səsləndiriblər. Sonra Əməkdar artist Fərqanə Qasımova Vüqar Camalzadənin Məhəmməd Füzulinin qəzəlinə həsr etdiyi “Eşitməzdim” əsərini ifa edib.

Konsertdə Xalq artistləri Teyyub Aslanov, Yusif Eyvazov, Elçin Həşimov, Əməkdar artistlər Əliağa Sədiyev, Toğrul Əsədullayev, Şirzad Fətəliyev, Kamran Kərimov, Afaq Abbasovanın möhtəşəm ifaları Forumun qonaqlarını valeh edib.

Milli musiqi aləti tarın ecazkar səsinin müşayiəti ilə təqdim olunan rəqslərin ahəngi maraqlı kompozisiya yaradıb.

Tədbirdə, həmçinin Fikrət Əmirovun "Gülüstan Bayatı-Şiraz" simfonik muğamından fraqment, "1001 gecə" baletindən Şəhriyar və Şəhrizadın dueti, Üzeyir Hacıbəylinin "Koroğlu" operasından qızların rəqsi, "İldırımlı yollarla" baletindən "Ümumi rəqs", Firəngiz Əlizadənin "İntizar" operasından final səhnəsi təqdim olunub.

Konsert proqramı tamaşaçıların zövqünü oxşayıb.



# Ağdam Konfrans Mərkəzində “Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri” mövzusunda xüsusi sessiya keçirilib

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 3-də Ağdam Konfrans Mərkəzində “Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri” mövzusunda xüsusi sessiya keçirilib.

Əvvəlcə qonaqlar 30 illik işğal zamanı Ermənistan ordusunun rayon ərazisində basdırdığı minaların, kustar üsulla hazırlanmış partlayıcı qurğuların və partlamamış hərbi sursatların sərgisi ilə tanış olublar.

Minatəmizləmə əməliyyatı haqqında qısa film nümayiş etdirilib.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayevin moderatorluğu ilə keçən sessiyada Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev açılış nitqi ilə çıxış edib. Bildirib ki, Azərbaycan xalqı 30 il öncə öz doğma yurdundan didərgin düşüb: “İşğaldan azad edilmiş ərazilərimizə daxil olanda bunu hər kəs görür. Bu gün işğaldan azad olunmuş ərazilərimizin hər yerində olduğu kimi, Ağdam, Füzuli və Xocavənd rayonlarında da bərpa-quruculuq işləri yüksək səviyyədə davam etməkdədir. Bu ilin sonuna qədər Ağdamın Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərinə sakinlərin köçü başlayacaq. “Böyük Qayıdış” Dövlət Proqramının birinci mərhələsi üzrə, yəni 2026-cı ilin sonunadək Ağdamda 12 kənd və Ağdam şəhərində 5 yaşayış kompleksi inşa olunacaq".




Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərov qeyd edib ki, Ağdam Azərbaycanın ən çox əhalisi olan şəhərlərindən biri olub: "Ağdam yüzlərlə mədəni abidəyə ev sahiblik edib. Təəssüflər olsun ki, hazırda həmin abidələri görə bilmirik. Otuzillik işğal ərzində Ağdamın zəngin mədəni-tarixi irsi dağıdılıb, məhv edilib, eləcə də Ermənistanın müxtəlif yerlərinə daşınıb. Əminəm ki, yaxın gələcəkdə Ağdam çiçəklənəcək, öz əzəmətini yenidən bərpa edəcək".

İşğal müddətində düşmən tərəfindən torpaqlarımıza yerləşdirilən minalardan danışan nazir müavini bildirib ki, Ağdam dünyanın ən çox minalanmış ərazilərindən biridir: "2020-ci ilin Vətən müharibəsindən sonra 60-dan çox insan mina partlayışı nəticəsində həlak olub, 300-dən çox şəxs yaralanıb. Hazırda minaların təmizlənməsi ilə bağlı işlər davam edir. Bu prosesdə ANAMA təşkilatının gördüyü işlər təqdirəlayiqdir".

ICESCO-nun İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro ölkəsi Zimbabvenin minaların təmizlənməsi sahəsində təcrübələrini bölüşüb.

UNESCO üzrə Malta Milli Komissiyasının sədri, mədəni irs üzrə ekspert Raymond Bondin minaların qeyri-maddi mədəni irs nümunələrinə vurduğu ziyandan danışıb.

BMT-nin İnkişaf Proqramının (BMTİP) mütəxəssisi Qadeem Tariq sessiyanın əhəmiyyətini qeyd edib. Söyləyib ki, bu günə qədər Azərbaycan mina təhlükəsi, onun təsirləri ilə bağlı bir çox konfrans keçirib: "Biz ümid edirik ki, bu gün təşkil edilən sessiya beynəlxalq ictimaiyyətin maariflənməsinə müsbət təsir göstərəcək".

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) Beynəlxalq əlaqələr, maarifləndirmə və mətbuatla iş idarəsinin rəisi Ramil Əzizov düşmənin Qarabağa yerləşdirdiyi minalar haqqında məlumat verib: "Biz mədəni irsin dağıdılması zaman vandalizm terminindən istifadə edirik. Sizin Ağdama gələrək bu olanları öz gözlərinizlə görməniz çox vacibdir. Araşdırmalara görə, təkcə Ağdamda 1,5 milyondan çox minanın quraşdırıldığı təxmin edilir. Onlarla tarixi irs nümunəmiz minalanıb. Düşmən hətta qəbiristanlıqlara belə minalar yerləşdirib. Öz yaxınlarının məzarlarını ziyarət edən insanlar həmin minalara düşüblər".

Sessiyadan sonra qonaqlar üçün Ağdam şəhərinə ekskursiya təşkil edilib. Onlar şəhərdə otuz ilə yaxın davam etmiş işğal dövrünün dağıdıcı nəticələrini öz gözləri ilə görüb, Ağdamda aparılan bərpa-quruculuq işləri barədə məlumat alıblar.

Ekskursiya zamanı qonaqlar Ağdam Dövlət Dram Teatrının qalıqlarına baxıblar. Daha sonra İmarət kompleksində görülən işlərlə tanışlıq olub, Ağdam Cümə məscidi ziyarət edilib.

# Mədəniyyət naziri İtaliya nümayəndə heyəti ilə görüşüb

1-3 may tarixlərində ölkəmizdə keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bir sıra yüksək səviyyəli qonaqları ilə ikitərəfli görüşlər təşkil olunur, əməkdaşlıq əlaqələri müzakirə edilir.

Mədəniyyət naziri Adil Kərimli mayın 3-də İtaliya Respublikası Deputatlar Palatasının vitse-prezidenti Corcio Mulenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Foruma qatıldıqlarına görə nümayəndə heyətinə təşəkkürünü bildirən nazir Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" və bu qlobal platforma çərçivəsində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında məlumat verib. Deyib ki, builki Forumun da zəngin proqramı var və bəşəriyyəti narahat edən məsələlər ətrafında faydalı müzakirələr aparılıb.

Qeyd olunub ki, Azərbaycan dövləti İtaliya ilə əməkdaşlığa önəm verir. Təsadüfi deyil ki, 2014-cü ildə "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamə imzalanıb. İki ölkə arasında mədəni əməkdaşlıq da inkişaf edir. Xüsusilə, tarixi-mədəni irsin qorunması, memarlıq və dizayn kimi sahələrdə əlaqələr ildən-ilə möhkəmlənir. Azərbaycan tərəfi İtaliya ilə kino sahəsində əməkdaşlıqda da maraqlıdır.

Görüşə görə təşəkkür edən İtaliya Deputatlar Palatasının vitse-prezidenti Corcio Mulen Forumda iştirakından məmnunluğunu bildirib.

Azərbaycanın İtaliya üçün vacib tərəfdaş olduğunu deyən qonaq ölkələrimiz arasında əməkdaşlığın geniş sahələri əhatə etdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, iki ölkə arasında ali təhsil sahəsində də yaxşı əlaqələr qurulub. ADA Universitetində İtaliya-Azərbaycan Universiteti layihəsi bunun parlaq təzahürüdür. Həmçinin bildirilib ki, İtaliyanın tərəfdaş ali təhsil ocaqlarının professorları ADA Universitetində mütəmadi mühazirələr oxuyurlar.

Söhbət zamanı iki ölkə teatrlarının qarşılıqlı qastrol səfərlərinin təşkili və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Mədəniyyət naziri şri-lankalı həmkarı ilə görüşüb

Dialoq Forumu çərçivəsində mədəniyyət naziri Adil Kərimlinin mayın 3-də daha bir görüşü Şri-Lankanın buddhasasana, din və mədəniyyət işləri naziri Vidura Viçramanayake ilə olub.

Qonağı salamlayan nazir Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfələrdən bəhs edib, bu il altıncı dəfə gerçəkləşən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini vurğulayıb.

Nazir həmçinin bu il ölkəmizin daha bir qlobal əhəmiyyətli tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Bunun beynəlxalq birliyin Azərbaycanın ətraf mühit və iqlim dəyişikliyi məsələlərinə göstərdiyi həssas münasibətinə verilən qiymət olduğunu deyib.

Nazir Vidura Viçramanayake Forumun yüksək səviyyədə təşkilinə və nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib.

Söhbət zamanı mədəni irsin qorunması sahəsində əməkdaşlıqla bağlı müzakirə aparılıb. Ölkəsinin mədəni irsin qorunması ilə bağlı zəngin ənənələrə malik olduğunu deyən Şri-Lanka naziri bu sahə üzrə təcrübələrini Azərbaycanla bölüşə biləcəklərini diqqətə çatdırıb.

Vidura Viçramanayake Azərbaycanın mədəniyyət nazirini Şri-Lankaya rəsmi səfərə dəvət edib.



# Cakomo Puççininin vəfatının 100-cü ildönümünə həsr edilmiş "Puççiniyə ithaf" adlı konsert baş tutub

Mayın 3-də VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Heydər Əliyev Mərkəzində italyan bəstəkar Cakomo Puççininin vəfatının 100-cü ildönümünə həsr edilmiş "Puççiniyə ithaf" adlı konsert olub.

Tədbirdə görkəmli bəstəkarın Cüzeppe Cakozanın librettosu əsasında yazdığı "Bohema" operası nümayiş olunub.

Əsərin orkestr və musiqi tərtibatçısı Aleksandr Krampe, səhnə tərtibatçısı Qrişa Asaqarov, musiqi rəhbəri və dirijoru isə Alberto Veronesidir.

"La Scala" Akademiyasının solistləri Fiorentina Kamera Orkestrinin müşayiəti ilə çıxış ediblər.

Xatırladaq ki, "Bohema" Cakomo Puççininin Cüzeppe Cakozanın librettosu əsasında yazmış olduğu 4 pərdəli operadır. Cakomo Puççininin on iki operasından dördüncüsü sayılır. Librettosu Anri Mürjrnin "Bohemanın həyatından səhnələr" əsəri əsasında yazılıb. Əsərin ilk premyerası 1896-cı ildə dirijor Arturo Toskanininin müşayiətində Turində olub.